Xalqın qəzeti!

# Xalq qəzeti

№ 242 (30358) 4 noyabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq.**

# Azərbaycan Türk dünyasının qardaşlıq körpüsüdür

## Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub



**Noyabrın 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.**

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulandı.

Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan Bayrağını ucaltması münasibətilə təbrik etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.




## Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü

**Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşünü açaraq qonaqları salamladı. Prezident Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi və Azərbaycan xalqını ölkəmizin ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edərək dedi: "Hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan xalqını dövlətçiliyin möhkəmləndirilməsi münasibətilə təbrik edirəm. Ölkəniz ərazi bütövlüyünü bərpa edib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu tarixi addım Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq atılıb".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Zirvə görüşündəki çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan söz açaraq dedi: "Sizin də yaxşı bildiyiniz kimi, dost Azərbaycan xalqı Türk dünyasında layiqli yer tutur, böyük hörmətə və nüfuza malikdir. Azərbaycan xalqı son illər əziz dostum İlham Heydər oğlunun rəhbərliyi ilə möhtəşəm uğurlar əldə edir".

Prezident Şavkat Mirziyoyev, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı tədbirlərdən danışdı. "Tarixi ədalət zəfər çaldı. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın quruculuq ərazisinə çevrilməsi istiqamətində mühüm nəticələr əldə olunur. Avqust ayında Şuşa və Füzuli şəhərlərində olarkən irimiqyaslı quruculuq işlərinin, müasir infrastrukturun yaradılmasının, dağıdılmış mədəni irs obyektlərinin bərpasının şəxsən şahidi oldum. Azərbaycan xalqını böyük Zəfər – ölkənin ərazi bütövlüyünün tam bərpası münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm", - deyə Özbəkistan Prezidenti vurğuladı.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Bu sayımızda


Türk dövlətlərinin dünya iqtisadiyyatında çəkisi artır — Səhifə ⇨ 6

Ötən "Əsrin müqaviləsi" yeni əsrin xidmətində — Səhifə ⇨ 7

Haypərəstlərin Zəngəzurda "konsulluq paradı" — Səhifə ⇨ 4

Separatçılar xunta rejimini xortlatmaq istəyirlər — Səhifə ⇨ 8

"Şuşa: Türkün zirvəsi" filmi Daşkənddə — Səhifə ⇨ 10

Ərzaq təhlükəsizliyinin yolu məhsul bolluğundan keçir — Səhifə ⇨ 7

ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyaları — Səhifə ⇨ 11

İsrail qüvvələri Qəzzaya doğru irəliləyir — Səhifə ⇨ 11


# Prezident İlham Əliyevin Astana manifesti – Qarabağdan Qızıl Almaya doğru

### *"Türk Əsri"nin qloballıq çağırışında 10-cu Zirvə*



**Azərbaycan Prezidenti İlham Əliyevin Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu Zirvə görüşündəki çıxışı bir sıra məqamların vurğulanması ilə yadda qaldı.**

İlk növbədə, dövlətimizin başçısının Azərbaycanın türk dövlətləri ilə münasibətlərə verdiyi önəmdən söz açmasını yada salaq. Əlbəttə, ölkəmiz türk dünyasının birləşməsində müstəsna rola və yerə malikdir. Deməli, cənab İlham Əliyevin bu məqama diqqət yetirməsində qanunauyğunluq var.

*(ardı 5-ci səhifədə)*



# Bakı anklavlardan yan keçməyəcək

**Rəsmi Bakı anklavlar məsələsində İrəvanla heç bir ticarət mübadiləsinə gedilməyəcəyini bəyan edib. Azərbaycanın israrlı tələbləri qarşısında son vaxtlar "hamının–hamıya" prinsipinə üstünlük verdiyini açıqlayan Ermənistan hakimiyyəti bununla Gədəbəy rayonundakı bir kənd anklavını Naxçıvanın Meğridəki Kərki kəndi ilə dəyiş-düyüş variantı məsələsini gündəmə salmağa çalışır. Bu zaman İrəvanın əsas arqumenti bu kəndlərin ərazilərinin eyni həcmdə olmasıdır. Ekspertlərin əksəriyyəti ilk baxışda məntiqli görünə biləcək bu planın arxasında Paşinyan iqtidarının Azərbaycanı digər anklav kəndləri geri istəməkdən yayındırmaq cəhdinin dayandığı qənaətindədir.**

*(ardı 8-ci səhifədə)*

## Rusiya üçün "fransız atı" – Qarabağ məsələsi, BMT və Braziliyadan kömək uman Verşin

**İlk baxışdan Rusiyanın dünyadakı ermənipərəstlik trendinə qoşulmadığına dair təsəvvür var. Necə də qoşulsun, axı Ermənistan əlinə düşən hər imkandan Moskvanı, sözün əsl mənasında, aşağılamaq üçün yararlanır.**



Lakin məhşur deyimdəki fikri Rusiyaya uyğunlaşdıraq: Sən saydığını say, görək, Moskva nə sayır. Bəli, Kreml də ermənipərəstlik trendinə qoşulur. Amma bir qədər fərqli formada. Ümumən, söhbətimiz bu barədədir. Ancaq digər məqamları da vurğulayacağıq.

*(ardı 4-cü səhifədə)*

# Astanada Türk Dövlətləri Təşkilatının “Türk Əsri” çağırışı altında 10-cu yubiley Zirvə görüşü

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı






*(əvvəli 1-ci səhifədə)*

– Hörmətli Kasım-Jomart Kemeleviç!

Hörmətli dövlət və hökumət başçıları!

Əziz dostlar!

İlk növbədə, qonaqpərvərliyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür edir və qardaş Qazaxıstana Türk Dövlətləri Təşkilatına qarşıdan gələn sədrliyi dövründə müvəffəqiyyətlər arzulayıram. Türk Dövlətləri Təşkilatına bir il ərzində uğurlu sədrlik münasibətilə qardaş Özbəkistanı təbrik edirəm.

Yenidən Astana şəhərində olmağıma şadam. Bu, son 2 ildə Qazaxıstana üçüncü səfərimdir. Hər səfərimdə Qazaxıstanda uğurlu islahatların və genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsinin şahidi oluram. Bütün əldə edilmiş uğurlar münasibətilə Qazaxıstan rəhbərliyini təbrik edirəm.

Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir.

Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər.

Oktyabr ayında Şuşa şəhərində Birinci Türk Dünyası Mədəniyyət Forumu təşkil edilmişdir. Fürsətdən istifadə edərək, Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsinə verdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm.

Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır. Azərbaycan–Özbəkistan İnvestisiya Fondu və Azərbaycan–Qırğızıstan İnkişaf Fondu yaradıldı.

2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır.

Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib.

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir.

Hörmətli həmkarlar!

Əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır.

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Ermənistan şəhər və kəndlərimizi yerlə-yeksan etmiş, tarixi və dini abidələrimizi dağıtmış və təhqir etmişdir.

Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi.

Ermənistanın baş nazirinin 2019-cu ildə o vaxt işğal altındakı Xankəndi şəhərində “Qarabağ Ermənistandır və nöqtə” açıqlaması danışıqlara son qoydu. Ermənistan rəhbərliyi o vaxt Azərbaycanı “yeni torpaqlar uğrunda yeni müharibə” ilə hədələyirdi.

2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən və 27 il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını özümüz təmin etdik. Cəmi 44 gün ərzində davam edən İkinci Qarabağ müharibəsi 10 noyabr 2020-ci il tarixində Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir.

Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasətinə baxmayaraq, məhz Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazır olduğunu bəyan etdi və beş baza prinsipini təqdim etdi.

2022-ci ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun real əməlləri tamamilə məntiqsiz və təzadlı idi. Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazilərində qalmaqda davam edirdi. Ermənistanın baş nazirinin bu il sentyabrın 2-də qondarma qurumun dırnaqarası “müstəqilliyi”ni təbrik etməsi və Qarabağda keçirilmiş 9 sentyabr dırnaqarası “prezident seçkiləri” ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik və birbaşa təhdid idi.

2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz erməni silahlı birləşmələri tərəfindən qəsdən yerləşdirilmiş minaların partlaması 6 mülki şəxsin və polis əməkdaşının həyatına son qoydu. Bundan sonra Azərbaycan konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdi. Antiterror tədbirləri nəticəsində mülki insanlara və mülki infrastruktura heç bir ziyan dəymədi. Azərbaycan beynəlxalq humanitar hüquqa tam riayət etdi. Bölgəyə iki dəfə səfər edən BMT missiyası bu faktları təsdiq etmişdir.

Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur.

Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər – bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevə bir daha minnətdarlığımı bildirirəm. Avqust ayında birgə iştirakımızla məktəbin açılış mərasimini məmnuniyyətlə xatırlayıram. Qazaxıstanın Azərbaycana hədiyyəsi olan Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Prezident Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür.

Əziz dostlar!

Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq.

Təşəkkür edirəm.



***

Zirvə görüşündə çıxış edən **Qırğız Respublikasının Prezidenti Sadır Japarov** Azərbaycanın suverenliyinin bərpası istiqamətində hər zaman mühüm addımlar atdığını qeyd edərək dedi: “Bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, Qırğızıstan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir”.

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan** çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün Türk dövlətlərində qürur doğurduğunu və bunun sülh üçün geniş imkanlar açdığını vurğulayaraq dedi: “Can Azərbaycan Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoydu. Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyuruq. Bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdıq. Açılan fürsət pəncərəsinin dəyərləndirilməsi ən böyük arzumuzdur. Ermənistanın Azərbaycan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir. Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək kommunikasiya xəttinin həyata keçirilməsi də böyük önəm daşıyır. Bu xəttin açılması bütün bölgə ölkələrinin rifahına ciddi töhfə verməklə yanaşı, Türkiyəni də Ata yurdumuz olan Orta Asiya ilə birləşdirəcək. Bu prosesin uğurla başa çatdırılması üçün Türk dünyası olaraq Azərbaycana dəstəyimizi davam etdirməliyik”.

Türkiyə Prezidenti Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokolla bağlı ardıcıl işlərin görüldüyünü də diqqətə çatdıraraq bildirdi: “Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokol Məclisimiz tərəfindən Türk Dövlətləri Əməkdaşlıq Günü olan 3 oktyabr tarixində qəbul edildi. Noyabrın 1-də Protokolun təsdiqlənməsi prosesini başa çatdırdıq. Bütün üzv ölkələri Protokolun ən qısa müddətdə həyata keçirilməsi üçün lazımi addımları atmağa dəvət edirəm”.

Türk dövlətləri arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlərin reallaşdırıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan qeyd etdi: “Nəhəng enerji və nəqliyyat infrastrukturu layihələri Türk dövlətləri arasında daim əsas və mühüm əməkdaşlıq sahəsi olub. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəmərləri və Trans–Anadolu boru kəməri bunun konkret nümunələridir. Xəzərin təbii qazının Türkiyəyə və Avropaya nəqli həm Türk dövlətlərinin rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Ölkələrimiz arasındakı nəqliyyat şəbəkəsini inkişaf etdirmək hədəfini də xüsusi vurğulamalıyıq. Bu düşüncə ilə Xəzərdən keçən Şərq–Qərb–Orta Dəhlizin rolunun artırılması istiqamətində səylərimizi davam etdiririk”.

**Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov** Türk dövlətləri arasında reallaşdırılan layihələrdən danışaraq dedi: “Qırğızıstan, Özbəkistan, Türkmənistan marşrutu boyunca Xəzər dənizinədək uzanacaq, sonra Azərbaycana və Türkiyəyə qədər genişləndiriləcək nəqliyyat dəhlizinin yaradılması üzərində iş gedir. Hazırda Türkmənistan qonşu və qardaş ölkələr olan Özbəkistana və Azərbaycana təbii qaz ixrac edir. Eyni zamanda, bizim Türkmənistan qazını Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə və gələcəkdə dünya bazarına ixrac etmək imkanımız var. Yaxın gələcəkdə qardaş ölkələr olan Azərbaycana və Türkiyəyə elektrik enerjisi də nəql etmək imkanımız olacaq”.

**Macarıstanın Baş naziri Viktor Orban** bu Zirvə görüşünün tərəflər arasında əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində xüsusi rolunu vurğuladı. Azərbaycanın uğurlarını görüş iştirakçılarının diqqətinə bir daha çatdıran Viktor Orban bildirdi: “Mən fürsətdən istifadə edərək, regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərdə və Qarabağın bərpası işlərində Prezident Əliyevə çoxlu uğurlar arzulayıram. Cənab Prezident, Sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm”.

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev** isə görülən işlər haqqında ətraflı məlumat verərək qeyd etdi ki, ötən dövrdə müxtəlif sahələrdə bir sıra mühüm qərarlar qəbul olunub. “İstanbulda BMT-nin Məskunlaşma Proqramının Regional nümayəndəliyinin yaradılmasına dair planlar var. Eyni zamanda, BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan arasında tərəfdaşlıq mövcuddur. Xüsusi vurğulamaq istəyirəm ki, sentyabrın sonunda Azərbaycanda Milli Şəhərsalma Forumu uğurla keçirildi”, – deyə Kubanıçbek Ömüralıyev bildirdi.

***

Sonra Astana aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalandı.

Daha sonra mükafatlandırma mərasimi oldu.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə türk xalqlarının inkişafında böyük xidmətlərinə görə Türk Dünyasının Ali Ordenini təqdim etdi.

# Zirvə görüşündə rəsmi qəbul təşkil olunub

**Noyabrın 3-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Prezidentin Qazaxıstan səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri noyabrın 3-də başa çatıb.**

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**



## Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi Yığıncağında qəbul olunmuş "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 noyabr 2023-cü il

## "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi"nin təsdiqi və "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 yanvar tarixli 837 nömrəli Fərmanının ləğvi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi"nin təsdiqi və "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 yanvar tarixli 837 nömrəli Fərmanının ləğvi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1540; 2016, № 5, maddə 859; 2017, № 7, maddə 1365; 2020, № 4, maddə 403) 1-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 noyabr 2023-cü il

# TDT-nin Zirvə görüşü dünya mediasında

**Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə iştirakı, toplantıda səsləndirilən fikirlər və keçirilən ikitərəfli görüşlər dünya mediası tərəfindən geniş işıqlandırılıb.**




Türkiyənin "TRT Haber", Anadolu Agentliyi, "Yeni Şafak", "En son haber", "Haberler", "Cumhuriyet", "Son dakika" və digər media qurumları tərəfindən yayımlanan xəbərlərdə Prezident İlham Əliyev tərəfindən Türk Dövlətləri Təşkilatının nüfuzunun bundan sonra da artacağına əminlik ifadə edildiyi, təşkilata üzv ölkələrin təhlükəsizlik, müdafiə və müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığının daha da artırmasının əhəmiyyətinin vurğulandığı bildirilir.

Yazılarda Azərbaycanın Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə yatırdığı, Azərbaycan–Özbəkistan İnvestisiya Fondu və Azərbaycan–Qırğızıstan İnkişaf Fondunun yaradıldığı, cari ilin yanvar-sentyabr aylarında ölkəmizin Türk dövlətləri ilə ticarət dövriyyəsinin 40 faiz artdığı, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqlədiyi və Şərq–Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə töhfə verdiyi vurğulanıb.

"TRT Haber"in yaydığı materialda Prezident İlham Əliyevin fikirlərinə istinad olunaraq, Qarabağdakı bərpa-quruculuq işlərinə Azərbaycan büdcəsindən 7 milyard dollar vəsait sərf edildiyi, gələn il azı 2,4 milyard dolların ayrılacağı bildirilir.

"Yeni Şafak" saytının yaydığı məqalədə Prezident İlham Əliyevin bu fikirləri yer alıb: "Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi. 2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi".

Qazaxıstanın "Kazinform", "Golos naroda", "Sputnik", "Baq", "Tengri news", "Kursiv", "Arbat media", "Smi24", "Orda", "Inbusiness", "Zakon", "Baigenews", "Astana tv" kimi informasiya saytları və xəbər portalları Prezident İlham Əliyevin Azərbaycanın böyük Türk dünyasının bir hissəsi olduğunu, dostluğumuzun, qardaşlığımızın əbədi olacağını söylədiyi və Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artacağına əminliyini ifadə etdiyi vurğulanır.

Azərbaycan Prezidenti İlham Əliyevin Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür etdiyi, bunun Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürü olduğunu vurğuladığı bildirilir.

"Turan Times" saytı yazır ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevi və xalqımızı ölkəmizin ərazi bütövlüyünün bərpası və dövlətçiliyin möhkəmləndirilməsi münasibətilə təbrik edib.

Özbəkistanın "Qalampir" saytında xəbərində bildirilir ki, Prezident Şavkat Mirziyoyev Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevi ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası münasibətilə təbrik edib.

"Newshub" portal qeyd edir ki, Prezident Şavkat Mirziyoyev Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi altında böyük uğurlar əldə etdiyini, tarixi Qələbə qazandığını, Qarabağda bərpa-quruculuq istiqamətində mühüm nəticələr əldə etdiyini bildirib.

Macarıstanın "Hvg", "24.hu", "hirstart", "rtl", "444.hu", "Magyar narancs", "Telex", "Szeged", "Hirnavigato" saytları Baş nazir Viktor Orbanın Zirvə görüşündə Prezident İlham Əliyevi regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərə və nailiyyətlər münasibətilə təbrik etdiyini, Qarabağın bərpası işlərinə uğurlar arzuladığını oxucuların diqqətinə çatdırıb.

İspaniyanın "EFE" agentliyi, "Vivir ediciones", "Que pasa", "Infobae", "Lado", "Minuto30" saytları yazır ki, Azərbaycan Qarabağın yenidən qurulmasına 9,4 milyard dollardan çox sərmayə qoyacaq.

Yazılarda Türk dövlətləri arasında reallaşdırılan layihələrin, Xəzərdən keçən Şərq–Qərb layihəsinin – Orta Dəhlizin rolunun artırılması istiqamətində səylərin davam etdirilməsinin əhəmiyyəti vurğulanır.

# "Heydər Əliyev və şanlı Zəfər tariximiz"



**Göyçay şəhərində "Heydər Əliyev və şanlı Zəfər tariximiz" adlı konfrans keçirilib. "Heydər Əliyev İli"nə həsr olunan konfransda iştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin Göyçay şəhərinin mərkəzində ucaldılmış abidəsini, daha sonra isə Göyçay Şəhidlər xiyabanını ziyarət ediblər.**

Rayondakı Heydər Əliyev Mərkəzində Ulu öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini əks etdirən eksponat və fotostendlər nümayiş olunub.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Kamal Qılıcov müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunmuş Zəfərin ulu öndər Heydər Əliyev siyasətinin böyük təntənəsi olduğunu qeyd edib. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev bugünkü zəfər təntənələrinin təməlində məhz Heydər Əliyevin uzaqgörən siyasətinin dayandığını qeyd edib.

Konfransda, həmçinin, Göyçay rayon prokuroru Ramin Hüseynov, Milli Məclisin deputatları Sabir Hacıyev və Məzahir Əfəndiyev, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi Anar Eyvazov, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin Qərb Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verdiyi dəyər, Ulu öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış ediblər.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Sonra Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq yürütdüyü məqsədyönlü siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi nümayiş etdirilib.

**İlqar HƏSƏNOV,**
**XQ-nin bölgə müxbiri**

# Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Milli Elmlər Akademiyası (bundan sonra – Akademiya) Azərbaycan Respublikasında elmin inkişafının təmin edilməsində və elm sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edən dövlət ali elmi təşkilatıdır.

1.2. Akademiya qeyri-kommersiya hüquqi şəxsidir.

1.3. Akademiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Akademiya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Akademiya elmi fəaliyyətini strukturuna daxil olan elmi müəssisə və təşkilatlar (bundan sonra – elmi müəssisə), habelə elmi bölmələri vasitəsilə həyata keçirir.

1.6. Akademiyanın müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, loqotipi (emblemi), bayrağı, müvafiq ştampları və blankları vardır.

1.7. Akademiya dövlət büdcəsinin vəsaiti, büdcədənkənar vəsait, kreditlər, qrantlar, ianələr, habelə "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, innovasiya, sahibkarlıq və digər fəaliyyət sahələrindən daxilolmalar hesabına maliyyələşir.

1.8. Qanuna uyğun olaraq, Akademiyanın əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Akademiya məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.9. Akademiyanın rəsmi adı aşağıdakı kimidir:

1.9.1. tam halda – Azərbaycan Milli Elmlər Akademiyası, qısaldılmış halda – AMEA;

1.9.2. ingilis dilində tam halda – Azerbaijan National Academy of Sciences, ingilis dilində qısaldılmış halda – ANAS.

1.10. Akademiya Bakı şəhərində yerləşir.

**2. Akademiyanın fəaliyyətinin məqsədi və istiqamətləri**

2.1. Təbiət, cəmiyyət və insan haqqında yeni biliklər əldə etməklə, Azərbaycan Respublikasının iqtisadi, sosial, mədəni və innovativ inkişafına xidmət göstərmək Akademiyanın fəaliyyətinin əsas məqsədidir.

2.2. Akademiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. elm sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.2. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvlərinin seçkilərini təşkil etmək və keçirmək;

2.2.3. həyata keçirdiyi elmi tədqiqatların Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair milli prioritetlərə və inkişaf strategiyasına uyğun təşkilini və inkişafını təmin etmək;

2.2.4. elmi potensialın formalaşdırılması və qorunması mühitini təmin etmək;

2.2.5. elmi innovasiyanı və elmin inkişafını təşviq edən mexanizmlərin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.6. strukturuna daxil olan elmi müəssisələrdə elmi-metodik və elmi təşkilati işlər həyata keçirmək.

**3. Akademiyanın vəzifələri**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Akademiyanın vəzifələri aşağıdakılardır:

3.1.1. elm sahəsində normativ hüquqi aktların, dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında, bu sahənin prioritet inkişaf istiqamətlərinin və inkişaf strategiyasının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.2. elmi tədqiqatlar aparılmasını təşkil və təmin etmək, elmi tədqiqatların elm sahəsində dövlət siyasətinin əsas prioritetlərinə uyğun təşkilinə dəstək vermək;

3.1.3. ekspertizalar, o cümlədən elmi ekspertizalar təşkil etmək və keçirmək;

3.1.4. elm sahəsində islahatlar aparılmasında, elmi infrastrukturun təkmilləşdirilməsində və elmin maddi-texniki bazasının müasirləşdirilməsində iştirak etmək;

3.1.5. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Akademiyanın səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.6. Azərbaycan dilinin qorunmasında, azərbaycançılıq və milli dövlətçilik ideologiyasının elmi əsaslarının işlənib hazırlanmasında iştirak etmək, bu istiqamətdə ardıcıl və sistemli tədqiqatlar aparmaq;

3.1.7. Azərbaycan ədəbi-ictimai fikrinin, mədəniyyətinin, tarixi-mədəni irsinin, adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunmasına və inkişaf etdirilməsinə dair elmi tədqiqatlar həyata keçirmək;

3.1.8. görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin elmi irsini, şəxsi arxivlərini, əlyazmalarını, tarixi əhəmiyyət kəsb edən digər materialları qoruyub saxlamaq və istifadə üçün təqdim etmək, elmi məktəbləri inkişaf etdirmək;

3.1.9. apardığı elmi tədqiqat işlərini elmin prioritet inkişaf sahələrinə və istiqamətlərinə uyğunlaşdırmaq;

3.1.10. sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirləri Akademiyanın inkişafına və əməkdaşlarının sosial müdafiəsinə yönəltmək;

3.1.11. elmi innovasiyanı təşviq etmək;

3.1.12. elmi müəssisə və təşkilatlarla, ali təhsil müəssisələri ilə, təsis sənədlərində elmi fəaliyyət nəzərdə tutulan ictimai birliklər və digər hüquqi şəxslərlə əməkdaşlıq etmək, sahələrarası elmi tədqiqat işlərini inkişaf etdirmək;

3.1.13. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.14. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

(ardı 9-cu səhifədə)

# Rusiya üçün “fransız atı” – Qarabağ məsələsi, BMT və Braziliyadan kömək uman Verşin

## Moskva Parisin “Qarabağ ssenarisi”ndə...



**(əvvəli 1-ci səhifədə)**

Başlayaq ondan ki, Rusiyanın Xarici işlər nazirinin müavini Sergey Verşin Braziliyanın ölkəsindəki səfiri Riçard Lima Baen Soareslə görüşündə “Qarabağ məsələsi”nə toxunub. O məsələyə ki, Prezident Vladimir Putin onun artıq həllini tapdığını bir deyil, bir neçə dəfə bəyan edib. Həm Putin, həm də Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov dəfələrlə bildiriblər ki, Ermənistan baş naziri Nikol Paşinyan 2022-ci ilin oktyabrında keçirilmiş Praqa sammiti zamanı Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Onlar, həmçinin vurğulayıblar ki, 2023-cü ilin mayında Prezident İlham Əliyevin, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistan baş nazirinin iştirakı ilə keçirilmiş görüşdə Praqa sammitinin nəticələri təsdiqlənib. Demək olarmı ki, bütün bunların S.Verşinə heç bir aiddiyyatı yoxdur? Əlbəttə, heç də o fikirdə deyilik ki, Rusiyanın XİN rəhbərinin müavini özfəaliyyətlə məşğuldur. Yəni, onun braziliyalı səfirlə “Qarabağ məsələsi”ni müzakirəyə çıxarmasını adi hal kimi qiymətləndirmirik. Axı, ortada BMT söhbəti var.

***

Hələlik onu bildirək ki, hazırda Fransa başda olmaqla, dünya erməniпərəstləri Qarabağın erməni əhalisinin bölgəyə qayıtması müstəvisində səs-küy qoparıblar. Sən demə, Azərbaycan etnik təmizləmə gerçəkləşdiribmiş, insanları öz doğma yurd-yuvasından didərgin salıbmış. Ümumən, belə ucuz populizm və sentimentallıq səs-küyü “köhnə qitə”-ni başına alıb desək, əsla yanılmarıq. Mövcud xüsusda Qarabağ ermənilərinin hüquq və təhlükəsizlik məsələsi qaldırılmaqdadır. Onların hüquq və təhlükəsizliklərini isə BMT sülhməramlıları qoruyacaqmış. Hər halda, belə bir beynəlxalq mexanizmin tətbiqi cəhdlərinin ön planda olduğu aşkardır.

Fransa, eyni zamanda, çalışır ki, Qarabağa Avropanın müşahidəçiləri ayaq açsın, oraya qayıdacaq ermənilərin durumunun monitorinqini aparsın və sair. Əlbəttə, ayının min oyunu bir armudun başındadır. Yəni, daha böyük məqsəd birincisi, Azərbaycanın Qarabağ erməniləri ilə bağlı konstitusion əsasda verdiyi təminatları heçə saymaqdadır. İkincisi, ölkəmizin suverenliyini şübhələndirmək yolu tutulur. Üçüncüsü və ən əsası isə Qarabağda erməni varlığının xüsusi vurğulanması, heç şübhəsiz, Qarabağ avantürizminin davamı baxımından vacibdir. Əlbəttə, daha bir məqsəd də var. Hazırda anti-Rusiya ovqatına köklənmiş dünya çalışır ki, Cənubi Qafqaz rus təsirindən qurtarsın.

***

Qarabağda hazırda çox məhdud sayda erməni yaşayır. Aydındır ki, onlara yönəlik hansısa təminatlar məsələsindən söz açmaq mümkünsüzdür. İndi Rusiya sülhməramlılarının da bölgədə mövcudluğuna heç bir ehtiyac yoxdur və kontingentin fəaliyyətini məhdudlaşdırmağa doğru getməsi məhz buna görədir.

Ancaq Moskva Qarabağda qalmaq niyyətindədir. Xüsusən avropalıların bölgəyə ayaq basmaq üçün start vəziyyətində olduğu hazırkı şəraitdə Kreml kimlərinsə finişə birinci çatması ilə razılaşmayacaq. Əslində XİN rəhbərinin müavini S.Verşinin Braziliya səfiri ilə görüşündə qaldırdığı məsələ bundan qaynaqlanır.

Sual yaranır: Braziliya hara, Qarabağ hara? Ölkə BMT-nin Təhlükəsizlik Şurasında qeyri-daimi üzvü statusunda təmsil olunur və oktyabr ayından rotasiya qaydasında quruma sədrlik edir. Deməli, həlledici mövqeyə malikdir. Rusiya XİN-in Verşin-Soares təması ilə əlaqədar məlumatından isə belə çıxır ki, Qarabağla bağlı qətnamə layihəsi baxılmaq üçün BMT Təhlükəsizlik Şurasına təqdim olunub. Bəs, bu layihənin müəllifi kimdir? Əlbəttə ki, Fransa.

***

Azərbaycan sentyabrın 19-da başladığı və 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri ilə suverenliyinin bərpasına nail olduqdan və Qarabağdakı separatçı rejim özünü buraxdığını elan etdikdən dərhal sonra Fransa BMT TŞ-nin təcili iclasını çağırmaq və bölgədəki vəziyyətin müzakirəsi təşəbbüsünü irəli sürmüşdü. Daha sonra ölkənin Xarici İşlər naziri Ketrin Kolonna Senatdakı çıxışında da məsələyə qayıtmış və bildirmişdi ki, rəsmi Paris BMT TŞ-də “Qarabağın erməni əhalisinin geri qayıtması üçün şərait yaradılması haqqında” qətnamə layihəsinin qəbulunun tərəfdarıdır. Onun sözlərinə görə, layihə özündə Qarabağ ermənilərinin, o cümlədən, onların tarixi və mədəni hüquqlarının qorunması üçün güclü təminatları ehtiva edir və bu, bölgədə daimi beynəlxalq mövcudluq şəraitində mümkündür. Belə mövcudluğun isə Rusiyanın sülhməramlılarla təmsilçiliyinə alternativ kimi ortaya atıldığı aşkardır. Deməli, Fransanın “qətnamə təəssübkeşliyinin” hədəfi, yuxarıda da bildirdiyimiz kimi, Qərbin Moskvanı Cənubi Qafqazdan sıxışdırmaq məntiqinə söykənməkdədir.

***

Yeri gəlmişkən, qeyd edək ki, rəsmi Paris bu il avqustun 16-da da BMT TŞ-də “Laçın dəhlizi”nin açılması və Qarabağdakı humanitar durum kontekstində müzakirə təşkil etmişdi. Lakin heç bir sənəd qəbul edilməmiş və beləliklə, Fransanın BMT TŞ-nin daimi üzvü statusundan faydalanaraq Ermənistanı və Qarabağdakı separatçı rejimi qorumaq cəhdləri iflasa uğramışdı. Deməli, Fransa hazırda yarımçıq qalmış işinin davamına girişib. Rusiya XİN-nin məlumatından belə görünür və Moskvanın özünün bilavasitə təşəbbüskar olduğunu söyləmək mümkünsüzdür. Kreml el misalımızda deyildiyi kimi, özgə atına minməyə cəhd göstərir. Verşin isə Braziliyanın səfirindən bunun üçün kömək istəyir. Yəqin razılaşarsınız ki, ortada Moskva adına son dərəcə miskin və riyakar mənzərə var.

Bəs, Rusiyanın erməniпərəstlik trendinə qoşulmaqda məqsədi nədir? Əslində, yuxarıda bununla bağlı müəyyən ipucu verdik. Bir halda ki, Qərb Rusiyanı bölgədən çıxarmağa köklənib, Kreml müqavimət göstərməlidir. Amma beləmi? Görünür, Moskva çalışır ki, Qarabağla bağlı qətnamə layihəsi BMT TŞ-dən keçsin. Yəni, ermənilərin bölgəyə qayıtmaları ilə bağlı Qərb, daha dəqiq desək, Fransanın təşəbbüsündə nəzərdə tutulan beynəlxalq mexanizmlər işə düşsün. Məsələ Kremlə sərfəlidir. Axı, indiki halda Rusiya sülhməramlılarının işi, demək olar, yoxdur və gec-tez onların ərazidən tamamilə çıxmaları məsələsi qalxacaq. Burada miskinlik Kremlin həmin Qərb mexanizmlərində təmsil olunmağa ümid bəsləməsi ilə bağlıdır. Həqiqətən, Rusiyanın Fransanın Qarabağ avantürizminin davamı planında yer almağa çalışması ortaya aciz durum çıxarır. Görəsən dəyərmi?

Dəyərmi, dəyməzmi, bunu Rusiyanın xarici siyasət idarəsi özü müəyyənləşdirsin. Fundamental məsələ Azərbaycanın bütün bunlara qarşı nələri etməsidir. Yuxarıda da vurğuladıq ki, rəsmi Bakı Qarabağ ermənilərinin bölgəyə qayıtmaları üçün təminat verir. Sonuncu dəfə bu məsələ Strasburqda Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Buriçlə Azərbaycanın Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri Əli Nağıyevin görüşündə təsdiqlənib. Eyni zamanda, onu da bildirmək lazımdır ki, ölkəmiz Qarabağ ermənilərinin qayıtmalarına paralel olaraq soydaşlarımızın hazırkı Ermənistan ərazisi olan Qərbi Azərbaycandan deportasiyası və onların öz yurd-yuvalarına dönmələri tələbini irəli sürməkdədir.

Yeri gəlmişkən, haqqında söz açdığımız sonuncu məsələ Avropa Şurasının insan haqları üzrə komissarı Dunya Miyatoviçin Bakıya səfəri zamanı gündəmə gəldi. O da məlumdur ki, xanım Miyatoviçin Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşü Ermənistanın ekspert cameəsində xeyli müzakirə olundu, narahatlıq doğurdu. Nəzərə alaq ki, Qərbi Azərbaycandan qovulanların sayı Qarabağ ermənilərinin sayından dəfələrlə çoxdur.

***

Göründüyü kimi, Azərbaycan öz maraq və mənafeləri baxımından ədalətli davranır. Heç şübhəsiz ki, həm siyasi oyun qaydalarını qoruyur, həm də prinsipiallıq, qətiyyət və ardıcıllıq nümayiş etdirir. Fransanın bu baxımdan yarıtmaz mövqe tutduğu aşkardır və mövzuya yenidən qayıtmaq istəməzdik. Bəs, Rusiya? Verşinin Braziliya səfiri ilə Qarabağ müzakirəsini aparması üzərinə gəlsək, ölkənin beyin mərkəzlərinin necə bir düşüncədə olduqlarını görmək asandır. Yəni, doğrudanmı Moskva Cənubi Qafqazda uğur qazanmağın başqa formulunu görmür? Hə, sonda diqqətə çatdırdığımız atalar sözünü tamamlayaq. Nəzərə alsaq ki, Rusiya Fransanın “qətnamə məntiqinə” sərmayə yatırmaq yolundadır. Deməli, başqasının oyunundan dividend götürməyə çalışır. Çox güman, özgə atına minənin tez düşdüyünü unudur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hayпərəstlərin Zəngəzurda “konsulluq paradı”

## Onların Qafanda hansı ölkənin vətəndaşlarına diplomatik xidmət göstərəcəkləri bəlli deyil

**Rəsmi İrəvan Zəngəzur bölgəsində özünə “dost, qardaş və bacı” saydığı xarici ölkələrin konsulluqlarının, mülki missiyalarının, baş ofislərinin sayını mümkün qədər artırmağa çalışır. Bir növ Azərbaycanla sərhəd bölgəsində konsulluqların sərgisini formalaşdırır. Bir il bundan əvvəl Qafanda konsulluğunu açan İranın ardınca Fransa da Qərbi Zəngəzurda analoji addımı atacağını bəyan etmişdi. Bunu İrəvana səfəri zamanı Xarici İşlər naziri Ketrin Kolonna deyib. İndi növbə Rusiyaya çatıb. Rusiya Federasiyasının hökuməti Ermənistanın Sünik vilayətinin Qafan şəhərində ölkənin baş konsulluğunun açılması barədə razılaşmanı bəyənib. Bununla bağlı Baş nazir Mixail Muşistin müvafiq sərəncam imzalayıb. Rusiya Xarici İşlər Nazirliyinə belə hallarda tələb olunan iki ölkə arasında nota mübadiləsini həyata keçirmək tapşırılıb. Bu, artıq Kremlin Ermənistan ərazisində Gümrüdən sonra ikinci konsulluğu olacaq.**



### “Konsulluq oyunçuları”nın niyyətləri

Aydın məsələdir ki, Moskva Avropa dövlətlərinin Ermənistana “konsulluq yürüşü”nə biganə qala bilməzdi. Ən azı, ona görə ki, Ermənistanın Türkiyə ilə sərhədini onun 102 saylı hərbi hissəsi qoruyur və Rusiya təkcə orada deyil, ümumiyyətlə, Cənubi Qafqazda hərbi mövcudluğunu zəiflətmək barədə düşünmür. Çünki, o, Qərbin Ermənistanda diplomatik iştirakını şaxələndirməkdə məqsədinin Azərbaycanla sərhədin təhlükəsizliyini, ərazi bütövlüyünü qorumaq yox, məhz Rusiyanı bölgədən sıxışdırmaq olduğunu yaxşı anlayır.

Məsələ ilə bağlı Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın açıqlaması maraq doğurur: “Başqa ölkələr də Zəngəzurda özlərinin diplomatik nümayəndəliklərini açmaq istəyirlər. Yəqin ki, bu dövlətlərdən biri də Kanada olacaq. Bu ölkənin artıq İrəvanda səfirliyi fəaliyyətə başlayıb”.

Bəzi siyasi ekspertlər bu qənaətdədirlər ki, Ermənistanda “konsulluq açmaq yarışı”na qoşulan dövlətlər İrəvanın yardımla bağlı ağlaşmasına, eləcə də Qərbin erməniпərəst mediasında “Azərbaycan Qərbi Zəngəzuru ələ keçirməyə hazırlaşır” səpgili feyk-xəbərlərinə o dərəcədə aludə olublar ki, bir növ konsulluq vasitəsilə bu “hərbi təcavüzün” qarşısını alacaqlarını düşünürlər. Məsələnin diplomatik tərəfinə gəldikdə isə hamıya bəllidir ki, konsulluq xidmətlərinin məqsədi, ilk növbədə, həmin ərazilərdə yaşayan öz vətəndaşlarına xidmət etməkdir. İndi sual olunur: İranın, həmin Fransanın Qərbi Zəngəzurda neçə vətəndaşı yaşayır, yaxud işləyir? Yeri gəlmişkən, Rusiyanın Qafanda konsulluq açmaq barədə qərarına və bunu ən qısa müddətdə reallaşdırmaq planına ilk reaksiya İranın bölgədəki konsulluğundan gəlib. İİR-in Qafandakı Baş konsulu Mürtəza Abidin Varamin bu barədə erməni mediasına verdiyi açıqlamasında yeni xəbərdən “şad olduğunu” dilə gətirib. O, həmçinin bildirib ki, Rusiyanın bu addımı Zəngəzur bölgəsində sabitliyin və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verəcək. “Çox şadam ki, burada əməkdaşlıq edə biləcəyimiz başqa diplomatlar da olacaq. İran ölkələr arasında əlaqələrin inkişafına yönəlmiş istənilən addımı alqışlayır. Ümid edirik ki, Ermənistanın Zəngəzur bölgəsində başqa ölkənin diplomatik nümayəndəliyinin və ya siyasi nümayəndəliyinin açılması sabitlik və təhlükəsizliyə töhfə verəcək”.

### İrəvanı çətin qərar gözləyir

Beləliklə, Qərbin və Kanadanın timsalında Şimali Amerikanın Zəngəzurda özlərinin “diplomatik toxunulmazlığa malik ərazi”lərini – konsulluqlarını yaratmasının sırf siyasi məqsəd daşıdığı şübhəsizdir. Bu “toxunulmaz adalar” onlardan ötrü yalnız Ermənistanda deyil, bütövlükdə, Cənubi Qafqazda maraqlarını təmin etmək baxımından strateji əhəmiyyət daşıyır. Fəqət onların konsulluq fəaliyyətindən narazı qalan tərəflər də yox deyil.

“Sünik əhalisi konsulluqların açılmasından narahatdır”. Bu xəbəri erməni mediası yayıb. Sünikdə (Qərbi Zəngəzurda –red.) bir-birinin ardınca xarici ölkələrin konsulluqlarının açılmasının rayon sakinlərinin narahatlığına səbəb olduğunu dilə gətirən Tex icmasının ağsaqqallar şurasının üzvü Masis Zeynalyanın qəzetin müxbirinə cavabı deyil, ünvanladığı sualları daha çox maraq doğurur: “Başa düşmürük, bəlkə Zəngəzuru ayırıblar? Əgər İrəvanda səfirlikləri varsa, o zaman İran, Avropa İttifaqı, Rusiya Sünikdə niyə ayrı-ayrı strukturlarını açırlar? Fransa da bununla bağlı öz arzusunu ifadə edib. Sünik rayonu Ermənistan Respublikasının suveren ərazisinə daxildirsə, o zaman, bu, nə deməkdir? Bu prosesin məqsədi nədir?”.

Bəli, bölgənin əhalisi çaşqınlıq və təşviş içərisindədir. Onlar başlarının üzərini hansı təhlükənin ala biləcəyindən narahatdırlar. Doğru olaraq düşünürlər ki, İranın, Aİ-nin, Rusiyanın, həmin Fransanın İrəvanda səfirlikləri olduğu halda, Sünikdə konsulluq açması hansı məqsədə xidmət edir? Əlbəttə, bütün bunlar bizdən ötrü ritorik suallardır. Cavabları həmin erməni ağsaqqalına da məlumdur.

Rəsmi Moskva bu istəyi ilə bağlı Ermənistanın müvafiq hakimiyyət orqanlarını müxtəlif kanallarla məlumatlandırıb. Görünən odur ki, hazırda İrəvan bu məsələdə strateji müttəfiqinə “xeyr” cavabını necə verəcəyi barədə düşünür. Axı, Paşinyan hakimiyyəti bir il əvvəl İrana Qərbi Zəngəzurda konsulluq açmasına öz icazəsini verib. Bu halda, Kremlin eyni müraciətinə hansı arqumenti əsas gətirərək “yox” deyə bilər? Ermənistan xarici işlər nazirliyi Moskvanın Qərbi Zəngəzurda konsulluğunu açmaqla bağlı hələlik hər hansı rəsmi müraciət göndərmədiyini bildirir. Deməli, Hayastan xarici siyasət idarəsinin bu məsələyə münasibəti sadəcə bununla bağlı Kremldən rəsmi müraciətin olmamasından ibarətdir. Maraqlıdır ki, Ermənistan mediasında gündəmi dəyişmiş bu məsələ ilə bağlı Rusiyanın İrəvandakı səfirliyindən də heç bir aşıqlama verilməyib.

Aydın olan odur ki, indi İrəvan çətin qərarın qarşısındadır. Onun Moskvanın təklifinə “bəli” deməsi qərbli tərəfdarlarını qəzəbləndirə, “xeyr”i isə onsuz da gərginlik dərəcəsi qalxmış Ermənistan – Rusiya münasibətlərində qəfil “qısaqapanmaya” səbəb ola bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fikrət SADIXOV,**
**politoloq**

**Konsulluğun vəzifəsi vətəndaşları qəbul etmək, pasport-viza məsələlərini həll etməkdir. Qafanda konsulluqlarını açan dövlətlərin hansı vətəndaşlara xidmət göstərəciyi, ümumiyyətlə, onların fəaliyyətinin nədən ibarət olacağı suallar doğurur. Buradan belə bir naticə hasil olur ki, onlar, sadəcə olaraq, region uğrunda mübarizə aparırlar. Həm də sayları getdikcə artmaqdadır. Sabah Fransanın həmin bölgədə konsullğunu açmasına da qətiyyən təəccüblənmərəm.**

**Məsələ ondadır ki, xarici dövlətlər diplomatik müstəvidə öz mövqelərini möhkəmləndirmək üçün rəqabətə girişiblər. Eyni zamanda, regionda nəzarət funksiyalarını yerinə yetirmək məqsədini güdürlər. Çünki onlar yaxşı başa düşürlər ki, Zəngəzur dəhlizi gec-tez açılacaq və oradan yüklərin daşınması, vətəndaşların keçidi təmin ediləcək. Həmin dəhlizin açılması özü-özlüyündə olduqca əhəmiyyətli, strateji xarakter daşıyan loqistik bir layihə olacaq. Bu baxımdan mən belə başa düşürəm ki, Ermənistanda konsulluqlarını yaradan ölkələr indidən mövqelərini möhkəmləndirməklə məşğuldurlar. Yəni, gələcəkdə bir sıra məsələləri nəzarət altına götürmək fikrindədirlər.**

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**siyasi şərhçi**

**Aydın məsələdir ki, xarici ölkələrin Ermənistanın Sünik bölgəsində konsulluqlarını açması sırf siyasi səbəblərlə bağlıdır. Adətən, bu tip diplomatik nümayəndəliklər elə yerlərdə açılır ki, orada həmin dövlətin vətəndaşları çoxluq təşkil edir. Bu zaman onların sənədlərlə bağlı işlərini təşkil etməkdən ötrü konsulluq səfirlikdən kənar, ikinci diplomatik missiya kimi fəaliyyət göstərir. Ermənistana gəldikdə isə, bu amil geosiyasi mübarizənin bir növ təzahürüdür. Bu mübarizədə əsas oyunçular İran, Rusiya Federasiyası və Qərb, Avropa İtifaqına üzv olan ölkələr, bir də Amerika Birləşmiş Ştatlarıdır. Yəni, hazırda bölgədə bu üç tərəf arasında gərgin mübarizə gedir. Bir-birinni ardınca konsulluqların açılması məhz həmin mübarizənin tərkib hissəsidir.**

**Bu fakt Ermənistana yaxşı heç nə vəd eləmir. İlk baxışda bu konsulluqlar ölkənin təhlükəsizliyinin təminatı kimi də izah oluna bilər. Amma bunun bədəli bölgənin geosiyasi mübarizə meydanına çevrilməsidir.**

**Əslində, İrəvan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq kimi daha asan yolu seçməli idi. Fərqli yol isə son nəticədə Ermənistan üçün böyük problemlər yarada bilər.**

# Prezident İlham Əliyevin Astana manifesti – Qarabağdan Qızıl Almaya doğru

(əvvəli 1-ci səhifədə)

Azərbaycan lideri bildirdi ki, etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. Qeyd edək ki, bu dəyərlərə müstəsna qiymətin verilməsi TDT-nin başlıca prinsiplərindəndir. Belə məqsədyönlü yanaşma isə qurumu beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik təşkilat kimi formalaşdırmaqda və əhəmiyyətini təsdiqləməkdədir.



***

Ümumən, Prezident İlham Əliyevin çıxışı TDT-nin ötən 10 ildəki fəaliyyətinin xronologiyasının təsviri nöqteyi-nəzərindən mühüm istiqamətlərlə zəngindir. Həmin istiqamətlərin hər birində ölkəmizin imzasının olması hər kəsə yaxşı məlumdur. Azərbaycan qurumun müxtəlif səviyyəli toplantılarını gerçəkləşdirib, onun stukturlarının formalaşmasına təşkilati və texniki dəstək göstərib ki, bütün bunlar üzv dövlətlərin cəmiyyətlərinin bir-birinə sıx şəkildə inteqrasiyasında həlledici missiyadır.

Əlbəttə, görülən işlərin mənəvi tərəfləri ilə yanaşı, iqtisadi parametrləri də var. Ölkəmiz mövcud xüsusda da öncüllük nümunəsidir. Dövlətimizin başçısı bu öncüllüyü əks etdirən faktları sadalamaqla, həm də TDT üçün qlobal aktor obrazı müəyyənləşdirir: “Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Birgə sərmayə fondlarının yaradılması prosesi başlanmışdır. Azərbaycan–Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradılıb. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar–sentyabr aylarında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır. Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib. Azərbaycan Şərq–Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir”.

***



Türklər tarixən dünyada nizam və ədalət nümunəsi olublar. Bu gün güclənməkdə olan Türk dünyası üçün bu amil son dərəcə vacibdir. TDT də mövcud istiqamətdə strukturlaşmış siyasət yürütməkdədir. Lakin Prezident İlham Əliyevin vurğuladığı kimi, hazırda dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur, müharibələr, qanlı münaqişələr alovlanır. “Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır”, – deyən dövlətimizin başçısının diqqəti Qarabağ reallıqlarına çəkməsi də başadüşüləndir. Çünki 30 ilə yaxın müddətdə Azərbaycan məhz Qarabağ müstəvisində ədalətsizliklər və haqsızlıqlarla üzləşib, separatçılığı müdafiə məqsədli ikili standartlardan əziyyət çəkib. Buna görə də dövlətimizin özünün ərazi bütövlüyünün və suverenliyinin bərpası naminə atdığı addımlar, bütövlükdə, Türk dünyasının beynəlxalq ədalət çağırışı və müqavimətidir. Bu müqavimət potensialını daim möhkəm saxlamaq şərtdir. Möhkəm və güclü olmaq üçün isə tarixi gerçəklikləri yadda saxlamaq, onların unudulmasına imkan verməmək mütləqdir. Bu səbəbdəndir ki, Prezident İlham Əliyev çıxışında keçmişə müraciət edir. “Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Ermənistan şəhər və kəndlərimizi yerlə-yeksan etmiş, tarixi və dini abidələrimizi dağıtmış və təhqir etmişdir. Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi”, – deyən dövlətimizin başçısının Ermənistan rəhbərliyinin, bilavasitə, 44 günlük müharibəyə səbəb olmuş addımlarını sadalamasında mənəvi və siyasi qanunauyğunluq var. Nəzərə alaq ki, 2019-cu ildə işğalçı ölkənin baş naziri Nikol Paşinyan bizə qarşı demarş xətti yürüdür, Ermənistanın hərbi birləşmələri qoşunların o zamankı təmas xətti boyu müxtəlif təxribatlar törədir, rəsmi İrəvanın təmsilçiləri yeni işğalların “anonsunu” verirdilər. Bütün bunlar nəinki ölkəmizə, bütövlükdə, Türk dünyasına təhdiddir. Axı, erməni avantürizminin böyük antitürk təmayülü var. Azərbaycan 44 günlük müharibədəki qələbə ilə bu təmayülə uzun müddət özünə gələ bilməyəcək ağır zərbə endirib.

***

Əlbəttə, populizm üzərində hakimiyyətə yiyələnmiş, özünü demokratiyanın “qladiatoru” qismində görən N.Paşinyanın məsuliyyətsiz bəyanatları ona və ölkəsinə baha başa gəldi. Ölkəmiz torpaqlarını işğaldan qurtardı. Beləliklə, cənab İlham Əliyevin dili ilə desək, BMT-nin 27 il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını təmin etdi. Lakin 2020-ci ildən ötən müddətdə Ermənistan özünün manipulyasiyalarından, Qarabağda separatçı rejimi saxlamaq ambisiyalarından daşınmadı, ölkəmizin suverenliyinə təhdid mahiyyətini saxladı və yaramaz əməllərini sülh danışıqlar müstəvisində gerçəkləşdirmək yolunu tutdu. Azərbaycan lideri Astanadakı çıxışında toplantı iştirakçılarını bu barədə də məlumatlandırdı: “2022-ci ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun real əməlləri tamamilə məntiqsiz və təzadlı idi. Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazilərində qalmaqda davam edirdi. Ermənistanın baş nazirinin bu il sentyabrın 2-də qondarma qurumun dırnaqarası “müstəqilliyi”ni təbrik etməsi və Qarabağda keçirilmiş 9 sentyabr dırnaqarası “prezident seçkiləri” ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik və birbaşa təhdid idi”.

Elə məhz buna görə də 2023-cü il sentyabrın 19-da Azərbaycan özünün konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. Məlumdur ki, Ermənistan və onun xaricdəki havadarları hazırda bu antiterror tədbirlərini, az qala, işğalçılıq müharibəsi kimi qiymətləndirməkdədirlər. TDT-nin 10-cu Zirvə görüşü belə ədalətsiz, beynəlxalq hüquqa zidd qiymətləndirmələrə qarşı tutarlı arqumentlərin səsləndirildiyi platforma kimi də tarixə düşəcəkdir. Prezident İlham Əliyev çıxışında, əsl həqiqətlərə nəinki müfəssəl aydınlıq gətirdi, eyni zamanda, Qarabağa sahiblənmək ruhumuzun mütərəqqiliyinə diqqəti yönəltdi.

***

Bəli, bu gün Azərbaycan işğaldan azad edilmiş torpaqlarda böyük bərpa və quruculuq işləri reallaşdırmaqdadır. Dünyanın əksər ölkələri, habelə onları təmsil edən nəhəng firma və müəssisələr prosesdə yaxından iştirak etməkdədirlər. Bu, onu göstərir ki, ölkəmizin Qarabağımızı dirçəltmək əzmini beynəlxalq aləm məhz bəşərilik, mütərəqqilik kimi qiymətləndirməkdədir. Prosesdə türk dövlətlərinin də yaxından iştirakı TDT-nin 2009-cu ildə Naxçıvanda əsası qoyulmuş birlik və vəhdət amalının möhkəmliyindən, sarsılmazlığından xəbər verməkdədir. Prezident İlham Əliyevin Qazaxıstanın paytaxtındakı çıxışında buna diqqət yetirməsi, quruculuq işlərində fəal mövqeyə malik türk dövlətlərinə təşəkkürlərini çatdırması qədirbilənlik nümunəsidir.

Digər tərəfdən, dövlətimizin başçısı XXI əsrin türk davasının və zəfərinin simvolu olan Qarabağın daha da inkişaf edəcəyi, əsl cənnətməkana çevriləcəyi ilə bağlı əminliyi konkret faktlara nəzərən aşılayır. Əlbəttə, o, hər zamankı kimi, Azərbaycan dövlətinin əzmini, iradəsini və əzəmətini ortaya qoyur: “Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur. Biz Böyük Qayıdış Proqramını icra edirik”.

Bəli, Qarabağa qayıdış, bütövlükdə, Türk dünyasının özünə qayıdışının rəmzi anlamıdır. Türk Dövlətləri Təşkilatı gerçəkləşdirdiyi tədbirlərlə, gördüyü əməli işlərlə bu anlamı daha geniş platforma və müstəvilərə daşımaqdadır. Bu gün Azərbaycanın və Türkiyənin öncüllüyü ilə qurum qlobal söz sahibinə çevrilir. Bu, ortaq dəyərlərə qayıdış məramına müqəddəslik qazandıran düşüncə və məfkurə çevrilişidir. Qətiyyətlə deyə bilərik ki, Qarabağa qayıdışı türkün özünəqayıdış təntənəsi edən ölkəmiz Prezident İlham Əliyevin liderliyi ilə Naxçıvandan başlanmış yolu daha parlaq uğurlarla zənginləşdirəcəkdir. Qızıl Almaya yön alan “Türk Əsri” müzəffərlik səhnələrinin gətirəcəyi böyük uğurlar və nailiyyətlərlə dolub-daşacaqdır.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Türk inteqrasiya modelinin yeni hədəfləri: risklər və ciddi addımlar

**Türk Dövlətləri Təşkilatı (TDT) struktur, funksiya və strateji məqsədlər baxımından yeni növ birlik formatıdır. Digər regional və beynəlxalq əməkdaşlıq formatlarından əsas fərqi üzv dövlətlərin tam mənada bərabərhüquqlu olması, onların hər birinin milli maraqlarının təşkilat miqyasında prioritet sayılması, başlıca olaraq türklərin haqq və hüquqlarının dünyanın bütün guşələrində qorunması, reallaşa bilən layihələrə və proqramlara üstünlük verilməsi və başqa ölkələrə də təşkilat kimi tam açıq olmasıdır.**

TDT-nin bu cür təşkilat kimi inkişafının təməli Naxçıvanda qoyulan və böyük bir coğrafiyada yaşayan türk xalqlarının birlik, bərabərlik və müstəqilliklərinin təminində ortaq fəaliyyət göstərmələrinin rəsmi hüquqi sənədləşdirilməsindən başlamışdır. Bununla TDT-nin strategiyasında iki aspekt önə çıxmışdır:

**Birincisi,** üzv dövlətlər arasında əməkdaşlığı bütün sferalar üzrə beynəlxalq hüquq çərçivəsində və hər birinin milli maraqlarını gözləməklə inkişaf etdirmək.

**İkincisi,** perspektivdə TDT-ni qlobal miqyasda əsas geosiyasi güclərdən birinə çevirmək. Bu məqsədlər fonunda artıq türk dövlətlərinin başçıları 10-cu Zirvə görüşlərini keçirmişlər. Sonuncu tədbir Qazaxıstanın paytaxtı Astanada olmuşdur.

Bu görüşə TDT təşkilat olaraq hansı nəticələrlə gəlmişdir və perspektivdə geosiyasi aspektdə nələr proqnozlaşdırıla bilər? Hər şeydən öncə, TDT-nin 10-cu Zirvəsinin başlıca özəlliyi Azərbaycanın bu təşkilatın struktur-funksional imkanlarına yeni təkan verməsi ilə bağlıdır. Bu faktor Azərbaycanın Qarabağda müstəqil dövlət kimi suverenliyini tam təmin etməsindən qayanaqlanır. Bununla Azərbaycan son 50 ildə Avrasiya məkanında müstəqil dövlət kimi suverenliyini siyasi-hərbi yolla tam təmin edən ilk ölkə olmuşdur. Bunun müxtəlif istiqamətlərdə ciddi təsirlərindən siyasətçilər, diplomatlar, KİV təmsilçiləri, analitiklər və ekspertlər bəhs edirlər.

Məsələnin praktiki aspektdə mahiyyəti ondan ibarətdir ki, ortaya maraqlı və aktual sual çıxır: Azərbaycanın suverenliyini tam təmin etmə üsulu daha geniş miqyasda TDT-nin fəaliyyət potensialına və onların praktiki reallaşmasına proyeksiya oluna bilərmi? Problem yalnız mənəvi, ideoloji və psixoloji üstünlük əldə etməkdən getmir. Əsas məqam ondan ibarətdir ki, “Azərbaycana suverenliyin nə demək olduğu TDT üçün beynəlxalq aləmdə yüksək nüfuz sahibi olmaq və dünyanın müasir əsas geosiyasi güclərindən biri kimi çıxış etmək imkanları ilə bağlıdırmı?” sualına cavab axtarışları ilə əlaqəlidir!

Daha qısa və konkret desək, söhbət TDT-nin Azərbaycanın suverenliyini təmini ilə əlaqəli uğurlarından beynəlxalq səviyyədə dövlətlər və təşkilatlararası münasibətlərdə istifadə etməyin optimal variantı və mexanizmini tapmasından gedir!. Buna görədir ki, Azərbaycan Prezidenti TDT-nin Astana Zirvəsində təsadüfən təşkilatın nüfuzunun beynəlxalq miqyasda yeni səviyyəyə yüksəldilməsi zərurətinin meydana gəldiyinə işarə vuran tezis ifadə etməmişdir!

Bu prizmada baxanda Astana Zirvəsi hazırkı vəziyyəti araşdırmaq əsasında gələcəyə hesablanmış bir tədbir olmuşdur. Konkret ifadə etsək: Türk inteqrasiya modeli yeni yön alır! Çünki real surətdə təsirli güc mərkəzi olmaq bütün aspektlərdə sürətli inkişaf dinamikasına malik olmağı tələb edir. Bura dövləti fəaliyyətin bütün sferaları daxildir. O cümlədən, enerji, istisadiyyat, mədəniyyət, elm, təhsil, informasiya-kommunikasiya texnologiyaları, nəqliyyat-loqistika infranstrukturu, büdcələr, müdafiə qüdrəti və s.

Vurğulanan sonuncu tezisin işığında İlham Əliyevin TDT-nin görüşlərində sərmayə qoyuluşu qurumlarının yaradılmasından, yeni informasiya texnologiyaları əsasında nəqliyyat-loqistika infrastrukturlarının yaradılmasından və bərpa olunan eneri layihələrindən bəhs etməsi tamamilə əsaslı görünür. Bu faktorları sistem halında təsəvvür etsək, məqsədin TDT-nin üzv dövlətlərin bərabərhüquqlu münasibətləri əsasında ən müasir inkişaf mexanizmlərinə və üsullarına malik olması ön plana çıxarılmış kimi görünür. Deməli, TDT, faktiki olaraq, real fəaliyyətində ədalətli, beynəlxaql hüquqa tam əməl edən və əsasən böyük bir geosiyasi məkanda əməkdaşlıq və təhlükəsizliyə istiqamətlənmiş güc kimi formalaşmaqda qətiyyətlidir!

Astana Zirvəsini daha da cəlbedici edən digər faktor hazırda bir sıra regionlarda risklərin, geosiyasi turbulentliyin və təhdidlərin artması tendensiyasının getdikcə trendə çecvrilməsi ilə bağlıdır. Burada başlıca olaraq 5 region nəzərdə tutulur.

**Birincisi,** Yaxın Şərqdə İsrail–HƏMAS qarşıdurmasının yaratdığı risk və təhdidlər.

**İkincisi,** Afrikada sistemdən kənar hərbi qruplaşmaların fəallığının artaraq bir sıra dövlətlərin sistemlərinin fəaliyyətinə ciddi müdaxilə etməsi (məsələn, “Vaqnerin” və eyni kateqoriyadan olan Qərb dövlətlərinin hərbi qruplaşmalarının Nigeriyada, Somalidə, Liviyada fəaliyyəti).

**Üçüncüsü,** Cənubi Qafqazda sülhə Qərbin bir sıra dövlətləri də daxil olmaqla bir neçə gücün əngəl törətməyə başlaması. Bu mənada Fransa və Kanadanın məntiqsiz davranışları daha çox risk yaradır. Məsələn, rəsmi Parisin Ermənistanda və hətta Zəngəzurda hərbi kontingent yerləşdirmək kimi sərsəm iddiası və rəsmi Ottavanın Aİ-nin “mülki müşahidə qrupuna” daxil olmaq həvəsi diqqəti daha çox çəkir.

**Dördüncüsü,** Şərqi Avropada Rusiya–Ukrayna münaqişəsinin az qala nüvə savaşına səbəb olmağa başlaması.

**Beşincisi,** Sakit Okean hövzəsində Tayvan məsələsinin daha geniş hərbi miqyasda ABŞ–Çin qarşıdurmasına çevrilməsi.

Bunlarla yanaşı, digər regionlarda da hələlik az intensiv olan, lakin hər an alovlana bilən qarşıdurmalar mövcuddur (məsələn, Balkanlarda boşnaqlarla serblər, Mərkəzi Asiyada qırğızlarla taciklər arasında və s.).

TDT-nin siyasi-coğrafi və geosiyasi məkanı prizmasında bu proseslərə baxsaq, görərik ki, risklər və təhdidlər faktiki olaraq təşkilatın ətrafını sarmaqdadır. Bu cür alovun ortasında “yaşıl ada” kimi mövcud olmaq mümkündürmü? Astana Zirvəsi bu suala cavab axtarmasa da, müzakirələrin ruhundan duyuldu ki, təşkilatı narahat edən ciddi problemlər sırasındadır. Məhz həmin faktoru nəzərə almadan TDT-nin beynəlxalq nüfuzunun qlobal güclərdən biri statusunda olmaq şərti ilə artmasından danışmaq mümkün deyildir.

Belə çıxır ki, Astana Zirvəsi, faktiki olaraq, türk dövlətləri qarşısında bütün sferalar üzrə inteqrasiyanın yeni sistemli və təsirli mexanizmlərini formalaşdırmaq zərurətini qoymuşdur. Çətin məsələ olsa da, irəliyə doğru atılmış ciddi addımdır! Çünki tarixi baxımdan çox qısa olan cəmi 14 il müddətində türk dövlətləri “Türkdillil ölkələr” kimi münasibətlər qurmaq miqyasından “Müstəqil Türk Dövlətləri” kimi vahid təşkilatda qlobal miqyaslı güc olmaq məqsədini qarşıya qoyan dinamik bir sistem halına gəlmişdir! Mübarəkdir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Türk dövlətlərinin dünya iqtisadiyyatında çəkisi artır



**Son illər ərzində Türk Dövlətləri Təşkilatı (TDT) dünyada tamhüquqlu beynəlxalq qurum kimi tanınmağa başlayıb və təşkilatın icra orqanları, müxtəlif sahələr üzrə qarşılıqlı fəaliyyət istiqamətləri formalaşıb.**

TDT-nin Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə də bununla bağlı müəyyən qərarlar qəbul olunub. Məsələn, toplantıda Türk İnvestisiya Fondunun yaxın günlərdə fəaliyyətə başlayacağı bildirilib. Macarıstanın baş naziri Viktor Orban həmin görüşdəki çıxışında ölkəsinin Türk İnvestisiya Fondunun işində iştirak etməyə hazır olduğunu, fonda 100 milyon avro dəyərində töhfə verəcəyini vurğulayıb.

Bu, TDT-nin yaxın illərdə təkcə regional və qlobal əhəmiyyətli sülh və əməkdaşlıq platformasına deyil, həm də dünyanın iqtisadi tərəqqi mərkəzlərindən birinə çevriləcəyinə dərin əminlik yaradır.

Bu fikrin səsləndirilməsini müəyyən rəqəmlər də şərtləndirir. Hesablamalara əsasən, hazırda Türk dövlətlərinin ümumi daxili məhsulu (ÜDM) 1,2-1,4 trilyon dollar həcmində qiymətləndirilir və bu, böyük məbləğdir.

Bu ilin ilk rübündə Özbəkistan iqtisadiyyatı 5,5 faiz, Qazaxıstan iqtisadiyyatı 4,9 faiz, Qırğızıstan iqtisadiyyatı 4,6 faiz, Türkiyə iqtisadiyyatı 4 faiz, Azərbaycan iqtisadiyyatı isə 0,4 faiz böyüyüb.

2022-ci ildə dövlət büdcəsinin gəlirlərinin artımı baxımından isə ən yaxşı göstərici 100,6 faizlə Türkiyədə qeydə alınıb. Qardaş ölkənin dövlət büdcəsinin gəlirləri 147 milyard 122 milyard 2 milyon ABŞ dolları olub. Türkiyə bu ilin yanvar-mart aylarında da dövlət büdcəsinin gəlirlərinin artımında fərqlənib, 75,1 faiz təşkil edən 53 milyard 812 milyon dollar məbləğində gəlirlə liderlik mövqetini saxlayıb.

Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 4 milyard 758 milyon dollar) və Azərbaycan (ticarət balansı 4 milyard 209 milyon dollar) malik olub. Bu dövr ərzində TDT-nin üzv ölkələrinin hər birində əsas kapitala yönələn vəsaitlərdə də artım müşahidə edilib.

Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi prosesində aparıcı rola malik ölkələrdəndir. Rəsmi Bakı türk dövlətlərinin inteqrasiyası üçün fəal siyasi təşəbbüslərlə çıxış edir, iqtisadi maraqların uzlaşdırılması məqsədilə koordinasiyanın formalaşmasını gerçəkləşdirir. Bu, respublikamızın türk dövlətləri ilə iqtisadi münasibətlərində özünü aydın nəzərə çarpdırır. Məsələn, 2022-ci ildə Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135 milyon 799 min dollardan 598 milyon 486 min dollaradək yüksəlməsi, Türkmənistanla dövriyyədə 5,1 dəfə artım qeydə alınması bunun bariz nümunəsidir.

Yeri gəlmişkən, ölkəmizin Türkmənistanla qarşılıqlı ticarətinin həcmi 2021-ci ildəki 105 milyon 23 min dollardan 2022-ci ildə 535 milyon 397 min dollara çatıb. Özbəkistanla ticarətdəki 64 faizlik artım birgə dövriyyəni 111 milyon 903 min dollardan 2022-ci ildə 183 milyon 307 min dollaradək artırıb.

Bu dövrdə Mərkəzi Asiyanın digər türk dövləti olan Qırğızıstanla da ticarət dövriyyəmizdə artım qeydə alınıb. Azərbaycanla bu ölkə arasındakı dövriyyə ötən il 17 faiz artaraq 9 milyon 18 min dollardan 2022-ci ildə 10 milyon 809 min dollaradək yüksəlib. Qardaş Türkiyə ilə ticarət dövriyyəmiz ötən il 6 milyard dollara yaxınlaşıb: 2021-ci ildə 4 milyard 661 milyon dollar olan ticarət dövriyyəsi 2022-ci ildə 5 milyard 842 milyon dollaradək yüksəlib.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, fəlsəfə doktoru**



Son illərdə TDT-nin sıraları əhəmiyyətli dərəcədə möhkəmlənib, quruma üzv dövlətlər arasında ümumi ticarət dövriyyəsinin həcmi 30 milyard dollara yaxınlaşıb. Tərəflər arasında həm qarşılıqlı şəkildə, həm də TDT çərçivəsində ticarət dövriyyəsinin artırılması davamlı şəkildə yaxşılaşıb, əlaqələrin daha da güclənməsi məqsədilə genişmiqyaslı nəqliyyat layihələri reallaşıb.

Astanada keçirilən TDT-nin "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə dövlətimizin başçısı çıxış edərək bununla bağlı bir sıra məqamlara toxunub. Ölkə rəhbəri bu təşkilata üzv dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu, artıq beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik qurum kimi tanındığını diqqətə çatdırıb. Prezident İlham Əliyev daha sonra respublikamızın TDT-nin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyduğunu və bunun əsas hissəsinin Türkiyəyə yönəldildiyini də qeyd edib.

Xatırladaq ki, Astanada keçirilən 10-cu zirvə görüşündə qəbul edilən qərarlar da təşkilatın möhkəmlənməsi məqsədi daşıyır. Birgə sərmayə fondlarının yaradılması prosesinə başlanılması, Azərbaycan–Özbəkistan və Azərbaycan–Qırğızıstan inkişaf fondlarının yaradılması, dövlətlərin standartlarını və terminologiyasını sistemləşdirməyin məqsədəuyğun sayıldığı da bunun bariz ifadəsidir.

Azərbaycanla TDT-nin üzv dövlətlər arasında dost münasibətləri ifadə edən bir faktı da xatırlatmaq yerinə düşərdi. Prezident İlham Əliyev toplantıdakı çıxışında üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycanın işğaldan azad olunan ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başlayarkən, bu prosesə türk dövlətlərinin də maraq göstərdiklərini, Özbəkistan və Qazaxıstan tərəfindən Füzuli şəhərində məktəb və yaradıcılıq mərkəzi inşa edildiyini, eyni zamanda, bunu Azərbaycan, Özbəkistan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürü kimi dəyərləndirib.

Prezident İlham Əliyev TDT-nin fəaliyyətindən danışarkən Azərbaycanın bu qurumun bütün fəaliyyəti dövründə fəal olduğunu vurğulayıb. Dövlət başçısı, eyni zamanda, geniş coğrafiyaya, zəngin təbii sərvətlərə, o cümlədən enerji ehtiyatlarına, bəzi ölkələrin, hətta güclü hərbi imkanlara malik olmaları isə yaxın gələcəkdə TDT-yə üzv dövlətlər arasında siyasi-iqtisadi əməkdaşlığın daha da möhkəmlənəcəyi əminliyi yaratdığını bildirib.

Təşkilatda təmsil olunan ölkələr arasında ötən müddətdə həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Həmin tədbirlərdə quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.

# Dövlət büdcəsinin layihəsi Milli Məclis komitələrinin birgə iclasında müzakirə edilib

**Dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclasında 2024-cü ilin dövlət büdcəsi layihəsi müzakirə edilib.**

Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, bu il ölkənin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib və 2024-cü ilin dövlət büdcəsi Azərbaycanın bütün ərazisini tam ehtiva edən dövlət büdcəsi olacaq.

Sonra maliyyə naziri Samir Şərifov dövlətimiz qarşısında yeni çağırışların dayandığını və təqdim olunan 2024-cü il üçün dövlət büdcəsi layihəsinin bu çağırışlar və prioritetlər nəzərə alınmaqla hazırlandığını söyləyib. Nazir işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramında müəyyən edilmiş hədəflərin yerinə yetirilməsinin, qüdrətli ordumuzun və ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsinin, habelə Azərbaycanın gələcək sosial-iqtisadi inkişafının mühüm vəzifələr olaraq əsas xərc istiqamətləri kimi nəzərdə tutulduğunu deyib.

Qeyd olunub ki, 2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon manat və ya 0,8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11,4 faiz çox olacaq. Gəlirlər bərabər olaraq qeyri-neft sektoru və neft sektoru hesabına təmin olunacaq. 2024-cü ilin dövlət büdcəsi xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. 2024-cü il üçün dövlət və icmal büdcələrinin layihəsi ölkəmizin müdafiəsi və milli təhlükəsizliyi, Böyük qayıdışın uğurla həyata keçirilməsi, dövlətimizin hərtərəfli inkişafı və digər prioritet hədəfləri üçün maliyyə təminatı yaradacaq.

Müzakirələrdə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, İntizam komissiyasının sədri Eldar İbrahimov, İnsan hüquqları üzrə müvəkkil Səbinə Əliyeva büdcə layihəsi ilə bağlı rəy və təkliflərini bildiriblər.

Maliyyə naziri Samir Şərifov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, səsləndirdikləri sualları cavablandırıb. Deputatlar "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanunun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***

Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Mədəniyyət komitələrinin birgə iclasında da 2024-cü il dövlət büdcəsi layihəsi müzakirə edilib.

Maliyyə naziri Samir Şərifov bildirib ki, 2024-cü ilin dövlət büdcəsi layihəsi regionda yaranan yeni reallıqlar nəzərə alınmaqla, güclü milli iqtisadi resurslara söykənərək, Azərbaycanın gələcək sosial-iqtisadi inkişafı ilə bağlı mühüm əhəmiyyətə malik tədbirlərin maliyyələşdirilməsi üçün zəmin yaradır. Növbəti il və sonrakı 3 il üzrə qeyd olunan çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat səviyyəsində nəzərdə tutulur, xərcləri isə 36 milyard 763 milyon manat həcmində təklif olunur.

Sonra 2024-cü ilin dövlət büdcəsi layihəsi ətrafında müzakirə aparılıb. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa büdcə layihəsini yüksək qiymətləndirib, bir sıra qeyd və təkliflərini veriblər. Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

**XQ**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 392** **Bakı şəhəri, 31 oktyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyul tarixli 2202 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 940; 2015, № 2, maddə 240; 2022, № 1, maddə 81) ilə təsdiq edilmiş "Azərbaycan Respub-likası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.6-1, 1.9-1, 1.11-1, 1.17-1, 1.18-1, 1.18-2, 1.19-1, 2.5-1, 2.8-1, 2.10-1, 2.17-1, 2.18-1–2.18-3-cü bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 1.6-1. | Tünd mavi rəngli yaz-payız, yay və qış beysbolkası | 1 ədəd (hər birindən) | 2 il |
| 1.9-1. | Tünd mavi rəngli kapüşonlu gödəkcə | 1 ədəd | 5 il |
| 1.11-1. | Tünd mavi rəngli yaz-payız gödəkcəsi | 1 ədəd | 2 il |
| 1.17-1. | Açıq mavi rəngli uzunqol köynək | 2 ədəd | 2 il |
| 1.18-1. | Açıq mavi rəngli üçdüymə köynək | 2 ədəd | 1 il |
| 1.18-2. | Kişi və qadınlar üçün kapüşonlu gödəkcə, yaz-payız gödəkcəsi və ya ətəyi düz uzunqol köynəklə geyinilən tünd mavi rəngli şalvar | 1 ədəd | 2 il |
| 1.19-1. | Kişi və qadınlar üçün üçdüymə köynəklə geyinilən tünd mavi rəngli yay şalvarı | 1 ədəd | 2 il |
| 2.5-1. | Tünd mavi rəngli yaz-payız, yay və qış beysbolkası | 1 ədəd (hər birindən) | 2 il |
| 2.8-1. | Tünd mavi rəngli kapüşonlu gödəkcə | 1 ədəd | 5 il |
| 2.10-1. | Tünd mavi rəngli yaz-payız gödəkcəsi | 1 ədəd | 2 il |
| 2.17-1. | Açıq mavi rəngli ətəyi qurşaqlı uzunqol köynək | 2 ədəd | 2 il |
| 2.18-1. | Açıq mavi rəngli üçdüymə köynək | 2 ədəd | 1 il |
| 2.18-2. | Kişi və qadınlar üçün kapüşonlu gödəkcə, yaz-payız gödəkcəsi və ya ətəyi düz uzunqol köynəklə geyinilən tünd mavi rəngli şalvar | 1 ədəd | 2 il |
| 2.18-3. | Kişi və qadınlar üçün üçdüymə köynəklə geyinilən tünd mavi rəngli yay şalvarı | 1 ədəd | 2 il |

**2.** 1.34, 2.17 və 2.31-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 1.34. | Qara rəngli göndən xüsusi bel kəməri | 1 ədəd | 2 il |
| 2.17. | Açıq mavi rəngli ətəyi düz uzunqol köynək | 2 ədəd | 2 il |
| 2.31. | Qara rəngli göndən xüsusi bel kəməri | 1 ədəd | 2 il |

3. 3.10-cu bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 393** **Bakı şəhəri, 1 noyabr 2023-cü il**

***"Azərbaycan Respublikasında buğda toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 iyun tarixli 139 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında buğda toxumçuluğunun inkişaf etdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 iyun tarixli 139 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 591; 2014, № 2, maddə 201; 2015, № 2, maddə 227; 2016, № 5, maddə 955; 2019, № 12, maddələr 2077, 2098; 2020, № 12 (V kitab), maddə 1589; 2021, № 5, maddə 512) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında "buğda" sözü "kənd təsərrüfatı bitkilərinin" sözləri ilə əvəz edilsin.

**2.** Preambula aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin istehsalının dinamik inkişafına nail olmaq məqsədilə toxumçuluq sahəsinə dövlət dəstəyi daha da genişləndirilmiş və kənd təsərrüfatı bitkilərinin istehsalının artırılmasına əsaslı zəmin yaradılmışdır.

Respublikada toxumçuluqla məşğul olan elmi müəssisə və təşkilatların fəaliyyətlərini tənzimləmək, onların maddi-texniki baza-larını möhkəmləndirmək, istehsalçıların toxuma olan tələbatlarını ödəmək və ölkədə kənd təsərrüfatı bitkilərinin istehsalının inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:".

**3.** 1.4-cü bənddə "buğda toxumunu istehsal edən Aqrar Elm Mərkəzinin təsərrüfatları və dövlət kənd təsərrüfatı istehsalı müəssisələri" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları" sözləri ilə əvəz edilsin.

**4.** 2-ci hissədə "Aqrar Elm Mərkəzinin tabeliyində olan təsərrüfatların, dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin və özəl buğda toxumçuluq təsərrüfatlarının" sözləri "toxum istehsal edən elmi müəssisə və təşkilatlarının, özəl toxumçuluq təsərrüfatlarının" sözləri ilə, "aqroservis xidmətlərinin" sözləri "aqrotexniki xidmətlərin" sözləri ilə əvəz edilsin.

**5.** 3-cü hissə üzrə:

5.1. 3.1-ci bənddə "servis xidmətlərinin" sözləri "aqrotexniki xidmətlərin" sözləri ilə əvəz edilsin;

5.2. 3.2-ci bənddə "Aqrar Elm Mərkəzinin tabeliyində olan təsərrüfatlar, dövlət kənd təsərrüfatı istehsalı müəssisələri və" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları," sözləri ilə, "servis xidmətlərinin" sözləri "aqrotexniki xidmətlərin" sözləri ilə əvəz edilsin;

5.3. 3.3-cü bənddə "Aqrar Elm Mərkəzinin təsərrüfatlarında" sözləri "toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında" sözləri ilə əvəz edilsin və həmin bəndə "başa çatdıqda" sözlərindən sonra "dövlət büdcəsinin vəsaiti hesabına" sözləri əlavə edilsin;

5.4. 3.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatları tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi kvota əsasında istehsal edilən elit toxumlar istehsal xərclərinin 70 faizindən yuxarı olmayan qiymətə toxumçuluq təsərrüfatlarına satılır və əldə edilən vəsait həmin elmi müəssisə və təşkilatların işçilərinin sosial müdafiəsinin və maddi-texniki bazasının gücləndirilməsinə yönəldilir.".

5.5. 3.5-ci bənddə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri ilə əvəz edilsin;

**6.** 5-ci hissədə "Nazirliyin yanında olan" sözləri "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında" sözləri ilə, ", tabeliyində olan Aqrar İnnovasiya Mərkəzində, habelə dövlət müəssisələrində" sözləri "və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin toxum istehsal edən elmi müəssisə və təşkilatlarında" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 394** **Bakı şəhəri, 2 noyabr 2023-cü il**

***"Tədavüldən çıxarılmış pul nişanlarının (saxta pul nişanları istisna olmaqla) məhv edilməsi Qaydaları"nın təsdiqi və "Tədavüldən çıxarılmış kağız və metal pul nişanlarının məhv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 iyul tarixli 333-25 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 41.1-ci maddəsinə, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanının 2.4-cü bəndinə uyğun olaraq və "Tədavüldən çıxarılmış pul nişanlarının məhv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 iyul tarixli 2293 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 avqust tarixli 4025 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Tədavüldən çıxarılmış pul nişanlarının (saxta pul nişanları istisna olmaqla) məhv edilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** "Tədavüldən çıxarılmış kağız və metal pul nişanlarının məhv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 iyul tarixli 333-25 nömrəli Qərarı ləğv edilsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Preziden-tinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Ərzaq təhlükəsizliyinin yolu məhsul bolluğundan keçir

## Bu məqsədlə dövlət büdcəsindən gələn il 503 milyon manat vəsait ayrılacaq

**Maliyyə Nazirliyinin 2024-cü ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında gələn il büdcədən ərzaq təhlükəsizliyi tədbirləri üçün 503 milyon manat vəsait ayrılması proqnozlaşdırılıb. Bu vəsait hesabına fermerlərə kənd təsərrüfatı istehsal vasitələrinin alınması, subsidiyaların verilməsi, lizinq yolu ilə texnikaların satılması və digər tədbirlərin maliyyələşdirilməsi nəzərdə tutulub.**

"Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli Fərmanı ilə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxal olunan buğdadan asılılığın azaldılması və yeni tənzimləmə mexanizmlərinin yaradılması hesabına ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlərin həyata keçirilməsi məqsədilə 60 milyon manat vəsait ayrılacaq.

Respublikada ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsi məqsədilə müəyyənləşdirilən vəzifələrə uyğun olaraq bu il də kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası qeydə alınıb. İlin ötən 9 ayı ərzində aqrar sahə üzrə 3 faiz, o cümlədən bitkiçilikdə 2,5 faiz, heyvandarlıqda 3,5 faiz artım olub.

Ümumiyyətlə, daxili bazar tələbinin əhəmiyyətli şəkildə yüksəlməsi fonunda ölkəmizin ərzaq təhlükəsizliyi göstəriciləri məqbul səviyyəyə çatıb. İlk növbədə, yerli istehsal potensialının gücləndirilməsi hesabına əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yaxşılaşıb. Hazırda kənd təsərrüfatı meyvə-tərəvəz, bostan məhsulları və yumurta üzrə respublikanı tam təminetmə potensialına malikdir. Əhalinin tələbatının daha yüksək olduğu ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 2022-ci ildə 86 faizə, süd və süd məhsulları üzrə isə 83 faizə çatıb.

Həmçinin torpaq–iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəltmək üçün Prezident İlham Əliyevin 2022-ci il iyulun 9-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq cari ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının ödənilməsinə başlanılıb.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu il ölkədə pivot suvarma



sistemləri ilə 100 min ton ərzaqlıq buğda yetişdirilib. Bu qədər məhsul adıçəkilən sistemin mövcud olduğu 22 min hektar ərazidə ərsəyə gətirilib. Gələn il bu cür daha 14 min hektar ərazidə ərzaqlıq buğda yetişdirilməsi nəzərdə tutulub. Artıq pivot suvarma sistemləri mövcud olduğu ərazilərin 150 min hektara çatdırılması planlaşdırılıb.

Yeri gəlmişkən, dövlət başçısının müvafiq fərmanına görə, əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunan, Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdanın hər tonu üçün istehsalçılara 100 manat məhsul subsidiyası ödənilib. Ümumilikdə, cari ildə aqrar sahəyə ayrılan subsidiyaların və güzəştlərin həcmi 2007-2022-ci illər ərzində nominal ifadədə 10 dəfəyə yaxın artaraq 450 milyon manat olub.

Aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi, aqrotexniki xidmətlərə əlçatanlığın reallaşması məsələləri diqqət mərkəzində saxlanılıb və toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi yüksəlib, kənd təsərrüfatı sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Kənd təsərrüfatı sistemində idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı son illərdə həyata keçirilən mühüm tədbirlər sırasında aqroparkların yaradılmasına mühüm önəm verilib. Bu yöndə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə dövlət–özəl tərəfdaşlığı mexanizmləri əsasında ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalı, ilkin emalı və satışının mütərəqqi forması kimi bu cür aqrar müəssisələrin qurulması geniş vüsət alıb. Aqroparkların formalaşdırılması və fəaliyyəti çərçivəsində aqrobiznes sahələrinə sərmayə yatırımı da həm müvafiq infrastrukturun yaradılmasına dövlət tərəfindən investisiya qoyulması, həm də güzəştli kreditlərin verilməsi ilə stimullaşdırılıb.

Qarabağ və Şərqi Zəngəzurun ölkəmizin kənd təsərrüfatına reinteqrasiyası istiqamətində mühüm layihələr həyata keçirilməsi də qarşıya prioritet vəzifə kimi qoyulub. Bu məqsədlə 2022/2023-cü illər mövsümündə artıq 70 min hektardan çox sahə əkinə cəlb edilib. Qısa müddət ərzində bu regionlar üzrə əkin dövriyyəsinə cəlb edilməsi proqnozlaşdırılan sahələrin az qala yarısında təsərrüfat işlərinin aparılması üçün tələb olunan texnika və digər istehsal vasitələri ilə təminatın yüksək səviyyədə gerçəkləşdirilməsi təcrübəsi yaradılıb. Eyni zamanda, azad olunan ərazilərdə taxıl əkininin müasir texnologiyalardan istifadə olunmaqla həyata keçirilməsi üçün minlərlə hektar sahəni əhatə edəcək pivot suvarma infrastrukturunun qurulmasına başlanılıb.

Ümumilikdə isə, ilkin qiymətləndirmələrə görə, Qarabağ və Şərqi Zəngəzurun işğala məruz qalan ərazilərində məskunlaşma, bərpa və inteqrasiya prosesləri başa çatdıqdan sonra, təqribən, 150 min hektar əkin sahəsinin dövriyyəyə cəlb olunması nəzərdə tutulub. Eyni zamanda, mövcud əkin strukturu nəzərə alınmaqla bu əkin sahələrinin təqribən 100 min hektarının taxıl məhsullarının istehsalına cəlb ediləcəyi planlaşdırılıb.

***V.BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Son illərdə ölkəmizdə ərzaq təhlükəsizliyi məsələsi daha da aktuallaşıb. Bu, əsasən, dünyada nəzərə çarpan iqtisadi–siyasi təlatümlərlə, idxal-ixrac əməliyyatlarında yaranan problemlərlə bağlı olub. Respublikada narahatlıq doğurubn bu amil nəzərə alınaraq məsələ ilə əlaqədar kənd təsərrüfatında daxili potensialın hərəkətə gətirilməsinə xüsusi önəm verilib. Bunun üçün, ilk növbədə, ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal resurslarının və infrastruktur təminatının inkişafı məsələsi önə çəkilib.

Bununla bərabər, son illər əsas ərzaq məhsullarının, o cümlədən ərzaqlıq buğdanın tədarükü və emalı ilə məşğul olan sahibkarlara güzəştli şərtlərlə kreditlər, faiz subsidiyaları və vergi-gömrük güzəştləri verilib.

Məsələn, təkcə ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 540 milyon manat vəsait sərf olunub.

Bu məsələ gələn ilin icmal və dövlət büdcələri üzrə layihələrin təqdimatında da öz ifadəsini tapıb. Belə ki, 2024-cü ildə ölkəmizin ərzaq təhlükəsizliyi tədbirləri üçün 503 milyon manat proqnozlaşdırılıb.

"Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli Fərmanı ilə ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxal olunan buğdadan asılılığın azaldılması və yeni tənzimləmə mexanizmlərinin yaradılması hesabına ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlərin həyata keçirilməsi məqsədilə 60 milyon manat vəsait ayrılacaq. Həmin sənədin icrası ilə əlaqədar pilot layihə olaraq müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Dövlət Ehtiyatları Agentliyinəvəun dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya məhsul subsidiyasının təbiqi, ərzaqlıq buğda əkilən sahələrdə qurulacaq suvarma sistemləri dəsti və avadanlıqlarına güzəştin tətbiqi və s. nəzərdə tutulur.

# Ötən "Əsrin müqaviləsi" yeni əsrin xidmətində

## 9 ayda AGG layihəsi çərçivəsində daha 100 milyon barel neft hasil olunub



**Azərbaycanın iqtisadi müstəqilliyi üçün möhkəm təməl, etibarlı baza yaradan "Əsrin müqaviləsi"nin imzalanmasından 29 il ötür. Əvvəlki dövrlərdə olduğu kimi, bu ilin 9 ayında da "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi üzrə tikinti-quraşdırma, qazma və hasilatla bağlı əməliyyatlar uğurla davam etdirilib.**

"BP-Azərbaycan" şirkətinin 2023-ci ilin 9 ayının nəticələrinə dair hesabatına əsasən, yanvar-sentyabr aylarında konsorsium iştirakçıları tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 365 milyon dollar, əsaslı məsrəflərinə isə 1 milyard 109 milyon dollar xərclənib.

BP şirkəti və tərəfdaşları bu ilin üç rübü ərzində "Yeni əsrin müqaviləsi" adlandırılan neft layihəsi çərçivəsində də bir sıra uğurlara imza atıblar. İlin əvvəlindən "Azəri-Mərkəzi-Şərqi" (ACE) layihəsi üzrə nəzərdə tutulmuş tikinti-quraşdırma işləri qrafik əsasında davam etdirilib. Hesabat dövründə ACE platformasının dayaq bloku inşa olunduğu Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan dənizə yola salınaraq suyun 137 metr dərinliyində öz daimi yerinə quraşdırılıb. Qurğu martın 16-da dənizə yola salınanadək istismar sınaqları vasitəsilə tam yoxlanılıb.

Adıçəkilən platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində davam etdirilib. Xatırladaq ki, aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev üst modulların inşa edildiyi sahəyə baş çəkərək tikintisi artıq başa çatmış qurğunun dənizə yola salınmazdan öncəki hazırlıq vəziyyəti ilə tanış olub.

Cari ilin iyul ayınadək olan dövrdə üst modulların quruda aparılması planlaşdırılan əsas istismar sınaqları da uğurla başa çatdırılıb. Bu işlərə isə qazma qurğusunun işə salınması və sınaq əməliyyat işlərinin aparılması müddətinin bitməsi, inteqrasiya olunmuş qurğu sisteminin, bütövlükdə, əminlik sınaqları və sistemi dayandırarkən təzyiqin aşağı salınması əməliyyatının təhlükəsizlik sınağı daxil idi. Belə təhlükəsizlik sınağı ilk dəfə quruda, həm də azot qazından istifadə edilməklə icra olunub. Əvvəllər isə belə sınaqlar yalnız dənizdə platforma işə salınarkən sistemə karbohidrogen vurmaqla keçirilirdi ki, ACE-də daha buna ehtiyac olmayacaq. Bütün bu işlər bitdikdən sonra üst modullar təhlükəsiz şəkildə lazımi hündürlüyə qaldırılaraq daşıma barjının üstünə həlak sürüşdürülmək məqsədilə yükləmə çərçivəsi qurğusunun üzərinə endirilib. Əsas istismar sınaqları bitdikdən sonra, avqust ayının 7-də ACE platformasının üst modulları inşa edildiyi Bayıl tikinti-quraşdırma sahəsindən dənizə yola salınıb. Üst modulların daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi, montajı və quraşdırılması işləri diqqətlə planlaşdırıldığından bu işlər təxminən iki günə uğurla tamamlanıb.

Sonradan quraşdırma işləri dənizdə davam etdirilib. Həmin işlər çərçivəsində qazma qurğusunun dayaq blokunun üzərinə ilkin yerləşdirilməsi əməliyyatı tamamlanıb, istilik, ventilyasiya və havalandırma sistemlərinin, həmçinin yanğınsöndürmə nasosu, təmiz su təchizatı və çirkab suların emalı qurğuları istismara verilib. Bütövlükdə isə, üçüncü rübün sonunadək ACE layihəsi üzrə işlərin 94 faizi yekunlaşdırılıb. 2024-cü ilin əvvəlində ACE-dən hasilatın başlanması üçün tələb olunan bütün digər işlər və hazırlıqlar isə qrafikə uyğun olaraq davam etdirilir.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. Hesabat dövründə AÇG-də, ümumilikdə, 136 neft hasilat quyusu, 45 su injektor quyusu və 8 qaz injektor quyusu istismarda olub. Bu ilin ötən dövründə istismarda olan 6 hasilat platformasından gündə orta hesabla 368 min barel və ya ümumilikdə, təxminən, 100 milyon barel, yeni 14 milyon ton neft çıxarılıb. Ümumi hasilatın 23 min bareli "Çıraq", 96 min bareli "Mərkəzi Azəri", 89 min bareli "Qərbi Azəri", 59 min bareli "Şərqi Azəri", 67 min bareli "Dərinsulu Günəşli" və 34 min bareli "Qərbi Çıraq" platformalarının payına düşüb.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Belə ki, cari ilin 9 ayı ərzində müqavilə sahəsində 6 neft hasilatı, 5 su və 1 qaz injektor quyusu tamamlanaraq istismara daxil edilib.

"Əsrin müqaviləsi"nin şərtlərinə əsasən, "Azəri-Çıraq-Günəli" yataqlar blokundan xam neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan hökumətinə təhvil verilir. Bu ilin üç rübü ərzində Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,5 milyon kubmetr, ümumilikdə, isə 1,5 milyard kubmetr səmt qazı Azərbaycanın qazpaylayıcı sisteminə ötürülüb. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

2023-cü ilin yanvar-sentyabr aylarında AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. İlin ötən 9 ayında terminaldan 172 milyon bareldən çox neft və kondensat ixrac olunub.

Xam nefti dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri, əvvəlki dövrlərdə olduğu kimi, cari ilin yanvar-sentyabr aylarında da fəaliyyətini uğurla davam etdirib. "BP-Azərbaycan" şirkətinin 2023-cü ilin 9 ayının nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 86 milyon dollar, əsaslı məsrəflərinə isə 25 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş təqribən 23 milyon ton xam neft və kondensat Ceyhan terminalında 238 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC kəməri ilə 2023-cü ilin sentyabr ayının sonunadək, təqribən, 554 milyon tondan çox (4,2 milyard barel) xam neft nəql edilib. Həmin neft həcmləri Ceyhanda 5 min 482 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Yeri gəlmişkən, bu il yanvar ayının 18-də BTC vasitəsilə 4 milyard barel neft ixracına nail olunması əlamətdar bir uğur kimi qeyd edilib.

Hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adıçəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistana məxsus xam neft və kondensat həcmləri də nəql olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Sumqayıt Kimya Sənaye Parkının rezidentləri ixracı artırır

**Sumqayıt Kimya Sənaye Parkının rezidentləri olan "SOCAR Polymer" MMC və "STP" MMC-yə məxsus "STP Global Cable" MMC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanan "İxrac icmalı" jurnalının 2023-cü ilin oktyabr ayı üzrə qeyri-dövlət və dövlətə məxsus olan ixracatçı subyektlərin reytinqində ilk onluğa daxil edilib.**



İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, reytinq cədvəlində "SOCAR Polymer" MMC dövlətə məxsus olan şirkətlərin siyahısında üçüncü, "STP" MMC-nin tərkibində fəaliyyət göstərən "STP Global Cable" MMC isə qeyri-dövlət ixracatçı subyektləri arasında altıncı yerdə qərarlaşıb. Yeri gəlmişkən, 2023-cü ilin 9 ayı ərzində "SOCAR Polymer" MMC 393 milyon manat, "STP Global Cable" MMC isə 31,5 milyon manat dəyərində məhsul ixrac edib.

Qeyd edək ki, sənaye parkları ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılmasında mühüm rol oynayır. Sənaye parklarının rezidentləri tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, "Made In Azerbaijan" brendi ilə bir çox ölkələrə ixrac edilir.

## İnflyasiya aşağı düşəcək



**Qiymət artımlarına təsir edən xarici və daxili amillər, o cümlədən növbəti il dünyada ərzaq qiymətləri indeksinin nisbətən aşağı düşəcəyi proqnozları nəzərə alınmaqla Azərbaycanda orta illik inflyasiya cari ildə 9,5 faiz səviyyəsində olacaq.**

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında 2024-cü ilin dövlət büdcəsinin proqnozlarının müzakirəsi zamanı deyib. Onun sözlərinə görə, inflyasiyanın 2024-cü ildə 5,3 faiz, 2025-2027-ci illərdə isə strategiya ilə müəyyən edilmiş hədəf diapazonuna uyğun olaraq 4-5 faiz ətrafında olacağı proqnozlaşdırılır.

Xatırladaq ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda inflyasiya ötən ilin eyni dövrünə nisbətən 10,9 faiz təşkil edib. İlin ötən dövründə ölkədə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri 12,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 10,1 faiz, əhaliyə göstərilmiş xidmətlər üzrə isə 9,6 faiz artıb.

***XQ***

# Bakı anklavlardan yan keçməyəcək

## İrəvan mövqeyimizin və şərtlərimizin dəyişmədiyini unutmasın!

*(əvvəli 1-ci səhifədə)*

Bir müddət bundan əvvəl Ermənistan mediası ərazilərində hələ də işğal altında qalan Azərbaycan kəndləri ilə bağlı Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Armen Abazyanın açıqlamasını yayımlamışdı. Amma həmin informasiyada Abazyanın müxbirin anklavların gələcək aqibəti ilə bağlı sualına cavab verməkdən yayındığı öz əksini tapmışdı. Hazırda erməni mediasının tirajladığı digər məlumata görə, Ermənistan hakimiyyəti anklavların Azərbaycana qaytarılması mövzusunda müzakirələri davam etdirir. Onların xəbər versiyası bundan ibarətdir ki, guya, rəsmi İrəvan hələlik anklavların hansı kəndlər olduğunu və onların Azərbaycana hansı prinsiplər əsasında qaytaracağını dəqiqləşdirməyib.

Sülh danışıqlarını "daşa dirəyən" məqamlardan biri kimi hallandırılan "anklavlar məsələsi" ətrafında müzakirələr hər iki ölkənin ictimaiyyətinin də diqqət mərkəzindədir. Rəsmi İrəvandan eşidilən son açıqlamalarda mübahisəyə səbəb olan bütün məsələlərin, o cümlədən, anklavların Ermənistan və Azərbaycan sərhədinin delimitasiya və demarkasiyası çərçivəsində müzakirə olunacağı xəbəridir. Onlar danışıqlarda hüquqi əsasların, xəritələnmənin və ikitərəfli razılaşmalarda qeydə alınan nüansların mütləq nəzərə alınmasını irəli sürürlər. Belə bir açıqlama ilə iki gün əvvəl Ermənistan parlamentində jurnalistlərlə söhbətində vitse-spiker Akop Arşakyan çıxış edib.

Onun sözlərinə görə bir çox suallar vardır ki, onlara məhz danışıqlar prosesində aydınlıq gətirilməlidir: "Biz deyirik ki, delimitasiya və demarkasiyanın hüquqi çərçivələri dəqiqləşdirilir. Sülh sazişi imzalanandan sonra bu proseslərə start veriləcək. Anklavlarla bağlı məlumat və rəqəmlər sonuncu Sovet Eksiklopediyasından götürülüb. Elə xəritələr vardır ki, onlara hər iki tərəfin əli çatır. Yəni, burada hansısa qaranlıq otaqları və ya qaranlıq küncləri axtarmağa ehtiyac yoxdur. Amma siz bilirsinizmi ki, Ermənistanın orada (Azərbaycanda–red.) daha bir "anklavı" var və biz həmin əraziləri müqayisə edəndə eyni sahənin şahidi oluruq? Qoy bu danışıqlar davam etsin. Ermənistan və Azərbaycan ərazi bütövlüyünün qarşılıqlı tanınması məsələsini mütləq aydınlaşdırmalı və bunu yazılı formada qəbul etməlidirlər!"




Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, Paşinyan hakimiyyəti Gədəbəy rayonundakı Başkəndi Naxçıvanın Meğridəki Kərki kəndi ilə dəyişmə variantını sülh gündəliyinə salmaqdan ötrü cəhdlər edir. Doğrudan da bu kəndlərin ərazisi təxminən eyni ölçüdədir. Amma bunu Qazaxın 7 kəndinə heç cür şamil etmək mümkün deyil.

* * *




Bu arada sülh danışıqlarının "səmt küləyi" əsməyə başlamamış İrəvandan Türkiyə ilə sərhədin açılacağı ilə bağlı ictimaiyyətə "müjdələr" verilməkdədir. Türkiyənin öz sərhədlərini başqa ölkələrin vətəndaşları üçün açacağı barədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlamentdə bildirib. Tezliklə yaxşı xəbərlərin olacağını söyləyən Mirzoyan diqqəti Ermənistanla Türkiyə arasında münasibətlərin tənzimlənməsinin İrəvan üçün çox vacib olduğuna yönəldib. O, bu xüsusda Tehranda Türkiyənin Xarici işlər naziri Hakan Fidanla görüşdüyünü, ikitərəfli danışıqlar üçün iki ölkənin xüsusi nümayəndələr təyin etdiyini də xatırladıb: "Ermənistan–Türkiyə münasibətlərinin normallaşması istiqamətində danışıqlar gedir. Mən nikbinliyimi bildirmək istəyirəm. Çünki Ermənistanla Türkiyə arasında dövlətlərarası quru sərhədin xüsusi qrup insan üçün açılmasından bəhs edən sazişimiz barədə yaxın gələcəkdə yaxşı xəbərlər ola bilər".

Ermənistan XİN başçısı, həmçinin onu da vurğulayıb ki, İrəvan 4 qonşusu – Azərbaycan, Gürcüstan, Türkiyə və İranla müntəzəm münasibətlərdə maraqlıdır. Fəqət hayların baş diplomatı onu da deməyi unudub ki, Ankara Ermənistanla sərhədini yalnız Bakının bütün şərtləri yerinə yetirildikdən sonra açacağını bəyan edib.

Türkiyə və Azərbaycanın vahid mövqedən çıxış etdiyini haylara növbəti dəfə isbatlayan nümunələr yetərincədir. İki qardaş ölkənin indi Qarabağda bərpa-quruculuq işlərini də çiyin-çiyinə apardığını söyləməyə ehtiyac yoxdur. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev dünən Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündəki çıxışında bu məsələ ilə bağlı söyləyib: "Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıblar. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur".

Bəli, yaxın üç ildə bu qədər soydaşımız ata-baba yurdlarına qayıdacaq. Doğma yurdlarına dönənlərin sırasında bu gün hələ də işğal altındakı Qazax rayonunun 7, Naxçıvanın isə 1 kəndinin əsl sahiblərinin də olacağına şübhə etmirik.

***İ.HƏSƏNQALA***
***XQ***

---

# Separatçılar xunta rejimini xortlatmaq istəyirlər

## Onların vurnuxmalarının kökündə şəxsi qazanc dayanır

**Azərbaycan Ordusunun sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ ərazisində varlığına son qoyulan keçmiş separatçı xunta rejiminin sabiq "qlavarları" vurnuxurlar. Onların aktivləşməsi separatçıların sayca beşinci və sonuncu başçısı Samvel Şahramanyanın oktyabrın 20-də İrəvandakı "Artsax nümayəndəliyi" qarşısında etiraz aksiyası keçənlərin önünə çıxaraq, "Artsax respublikası ləğv olunmayıb, heç bir sənəd xalqın yaratdığı respublikanı ləğv edə bilməz" deməsi ilə başlayıb. Oktyabrın 28-də S.Şahramanyan Ermənistanın İctimai televiziyasına geniş müsahibə verib. O, müsahibə zamanı bir sıra məsələlərə aydınlıq gətirib, "gələcək perspektivə" dair fikirlərini bölüşüb.**

Noyabrın 1-də isə Qarabağdakı keçmiş separatçı dəstənin üzvləri İrəvanın mərkəzindəki beşulduzlu "Marriott" otelində toplaşaraq, qapalı müzakirə aparıblar. Ermənistanın media qurumları görüşlə bağlı yazılarda separatçıların heç bir qərara gələ bilmədiyini vurğulayıblar. O da qeyd olunub ki, qapalı görüşün keçirilməsində məqsəd qondarma rejimin saxta dövlət qurumlarının saxlanılması və "mühacirət hökuməti"nin formalaşdırılması olub. İclasda əsasən S.Şahramanyanın qondarma rejimin mövcudluğuna son qoyulması və bütün strukturlarının buraxılmasına dair sentyabrın 28-də imzaladığı "fərman"la bağlı məsələlər müzakirə edilib. İddialara görə, Şahramanyandan xunta rejiminin buraxılması ilə bağlı "fərmanını" ləğv etmək, "rəsmi strukturların" fəaliyyətinin davam etdirilməsi istənilib. Bildirilib ki, S.Şahramanyan özü də bu mövqedə olduğu üçün rejimin fəaliyyətini davam etdirməyə çağıranların fikri ilə razılaşıb. İclasa qatılan hüquqşünaslar bildiriblər ki, məlum "fərman" qeyri-qanunidir. Belə ki, bir şəxs "dövləti" buraxa bilməz. Ortaq variant kimi Samvel Babayanın "fərman"ı "Konstitusiya Məhkəməsinə" göndərmək və onu qanunsuz hesab etmək təklifi üzərində dayanılıb.



Ancaq separatçılar qondarma rejimə süni nəfəs verib onu yaşatmağa çalışsalar, gərək onun "strukturlarında" işləyənlərə də əməkhaqqı ödənilsin. Əməkhaqqı üçün isə mənbə yoxdur. Belə ki, Ermənistan hökuməti "dqr"in maliyyələşməsini dayandırıb və ona vəsait ayırmaq niyyətində deyil. Bu baxımdan qapalı toplantıda heç bir nəticə hasil olmayıb. İddialara görə, S.Şahramanyanın xarici ölkələrin nümayəndələri və Qərb diplomatları ilə görüşlərində əsas məqsədi də maliyyə əldə etməkdir. Beləliklə, aydın olur ki, separatçılar yalnız maliyyə əldə etmək və havayı maaş almaq uğrunda mübarizə aparırlar. Ancaq buna Ermənistan hökumətinin izn verəcəyi mübahisəlidir. Əksinə, noyabrın 2-də Nikol Paşinyan Qarabağı tərk etmiş ermənilərə Ermənistan vətəndaşlığının verilməsi və onların işlə təmin olunması barədə qərar qəbul edib. Hökumətin iclasında çıxış edən baş nazir Qarabağ ermənilərinə Ermənistan vətəndaşlığı verilməsi məsələsini mümkün qədər operativ həll etməyi tapşırıb. "Qarabağdan olan soydaşlarımız Ermənistan Respublikasının vətəndaşlığını almaq üçün müraciət edirlər. Bizim vəzifəmiz bütün prosedurlara riayət etməklə bu prosesi mümkün qədər tez təşkil etməkdən ibarətdir", – deyə o bildirib.

Bu arada Ermənistan mediasında ölkənin üçüncü prezidenti, əslən Xankəndidən olan Serj Sarkisyanın S.Şahramanyanla görüşmək istəyi və bu görüşün baş tutması barədə məqalə dərc olunub. Məqalədə qeyd edilib ki, Şahramanyan "Qarabağ klanı"nın "liderləri" olan S.Sarkisyan və Robert Koçaryanla əlaqə qurmaqda maraqlı deyil. Bunun bir səbəbi onların Ermənistanda heç bir nüfuzunun olmamasıdırsa, digər səbəbi Paşinyanı daha da qıcıqlandırmamaqdır. Belə ki, Paşinyanın siyasi rəqibləri Sarkisyan və Koçaryanla işbirliyi quracağı halda Şahramanyanın Ermənistanda yaşamaq imkanı da məhdudlaşdırıla bilər. Buna baxmayaraq, Sarkisyanın israrı nəticəsində Şahramanyan görüşə razılıq verib. Ancaq bu görüşdə də heç bir nəticə hasil olmayıb, Sarkisyan yalnız "ümumi vəziyyəti" və separatçıların gələcək addımlarının nədən ibarət olacağını öyrənə bilib.

Ermənistan hakimiyyəti ilə Qarabağda mövcud olmuş separatçı rejimin sabiq rəhbərləri arasındakı münasibətlərlə bağlı "Joxovurd" qəzetində dərc olunan məqalə də maraq doğurub. Məqalədə qeyd olunub ki, Paşinyan nəyin bahasına olursa-olsun "Artsax" rəhbərliyini diskreditasiya etmək (gözdən, nüfuzdan salmaq) istəyir. "Joxovurd" yazıb: "Bir aylıq fasilədən sonra "Mülki müqavilə" partiyasının idarə heyətinin üzvləri Paşinyanın rəhbərliyi ilə iclas keçirdilər. Qarabağın itirilməsinə baxmayaraq, Paşinyan və onun partiyasının üzvləri üçün əsas məsələ hakimiyyətin qorunub saxlanılmasıdır. Bundan əlavə, Paşinyan nəyin bahasına olursa-olsun "Artsax" rəh-



bərliyini gözdən salmaq istəyir. Əsas hədəf Samvel Şahramanyandır. Hər şeyi etmək lazımdır ki, narazılıq oxları Şahramanyana doğru yönəlsin. Lakin Paşinyan bununla məhdudlaşmaq istəmir. O, "Mülki müqavilə"nin üzvlərinə ölkə ictimaiyyətində anti-Rusiya əhval-ruhiyyəsini dərinləşdirməyi, əvvəlki hakimiyyətin Moskvanın köməyi ilə geri qayıtmaq istədiyini hər vasitə ilə bəyan etməyi tapşırıb. Planları həyata keçirmək üçün o, bütün resurslardan – saxta xəbərlərdən, qərbpərəstlərdən, deputatlardan istifadə etməyi və həmin tezisləri bütün platformalarda təbliğ etməyi tapşırıb. Hakim partiyanın deputatları artıq Şahramanyana müxalif olan Qarabağdakı separatçı rejimin ordusunun keçmiş komandanı Samvel Babayanla, habelə onun kiçik komandasının da qoşulduğu media resursları ilə işləməyə başlayıblar".

***

Ermənistan hökumət rəsmilərinin keçmiş separatçı rejimin təmsilçiləri ilə ünsiyyət qurmaları, hansısa "mühacirət hökuməti"nə dəstək vermələri rəsmi İrəvanın Azərbaycana ərazi iddiasının bitmədiyi demək olardı. Bu isə N.Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü Qarabağ iqtisadi rayonu da daxil olmaqla, 86,6 min kvadratkilometr daxilində tanımaqla bağlı Praqada imzaladığı sənədə ziddir. Eyni zamanda, bu halda Azərbaycanla sülh sazişi də ciddi şəkildə sual altına düşə bilər.

Ancaq hətta, Qarabağda özünü buraxmış rejimi xortlatmağa cəhd edilsə belə, bu, heç nəyi dəyişməyəcək. Azərbaycan 44 günlük Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra regionda yeni reallıqlar yaradıb. Həmin reallıqları artıq bədxahlarımız da qəbul ediblər. Bu mənada İrəvanın hansısa küçəsində yerləşən binaların birində qondarma rejimin "fəaliyyət göstərib-göstərməməsi"nin bizim üçün təfavütü yoxdur.

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu isə "Xalq qəzeti"nə bildirib ki, Ermənistana köçən separatçılar var gücləri ilə Qarabağda qalan azsaylı ermənilərin də bölgəni tərk etməsinə çalışırlar. Onun sözlərinə görə, separatçılar, guya, Qarabağda qalanlara yaxşı baxılmadığına, onların Xankəndidə aciz vəziyyətdə olmalarına dair müxtəlif şayiələr yayırlar: "Separatçılar belə bir şayiə də yayırlar ki, guya, Qarabağda qalanlar əsl erməni deyillər, ya rus, ya da qarışıq millətdəndirlər. Yəni, sözlərindən belə çıxır ki, əsl erməni azərbaycanlılarla bir yerdə yaşaya bilməz, yaşamamalıdır. Bu, erməni separatçıların ənənəvi irqi ayrı-seçkilik siyasətidir".

Elxan Şahinoğlu "Qarabağda qalanlar əsl erməni deyillərsə, nədən onların da Ermənistana köçmələrinə çalışırsınız?" – deyə ritorik sual verib. Qeyd edib ki, separatçıların məqsədi aydındır: "Qarabağda ermənilərin yaşaması onların Azərbaycana qarşı "etnik təmizləmə" təbliğatını zəiflədir. Azərbaycan Qarabağda qalan erməniləri güc yolu ilə orada saxlamayıb, istəyən ərazini tərk edə bilər. Ancaq getməyib qalanlar düşünürlər ki, Ermənistanda səfil həyatı yaşamaqdansa, Azərbaycan qanunları və pasportu ilə doğulduğu bölgədə və öz evində yaşaması daha məqbuldur".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi

**(əvvəli 3-cü səhifədə)**

3.1.15. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.16. Akademiyanın fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.17. Akademiyaya ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadəni təmin etmək;

3.1.18. Akademiyanın informasiya təminatını təşkil və onun təhlükəsizliyini təmin etmək;

3.1.19. Akademiyanın strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.20. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.21. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 4. Akademiyanın hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Akademiyanın aşağıdakı hüquqları vardır:

4.1.1. elm sahəsində normativ hüquqi akt layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

4.1.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək, onların icrasına nəzarət etmək;

4.1.4. strukturuna daxil olan qurumlarda Akademiyanın Rəyasət Heyətinin (bundan sonra – Rəyasət Heyəti) qərarlarının və Akademiya prezidentinin əmr və sərəncamlarının icrası, kargüzarlıq işinin təşkili, müraciətlərə baxılma, həmçinin əmək və icra intizamına riayət olunması vəziyyətini yoxlamaq və tədbirlər görmək;

4.1.5. elmin inkişafı ilə bağlı qərarların qəbul edilməsində iştirak etmək;

4.1.6. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

4.1.7. elmi mübadilə proqramlarında, müsabiqələrdə və qrant layihələrində iştirak etmək;

4.1.8. beynəlxalq təşkilatlara, digər ölkələrin akademiyalarına, elmi cəmiyyətlərə və assosiasiyalara üzv seçilmək;

4.1.9. dünyanın tanınmış alimləri ilə birgə elmi tədqiqatlar aparmaq, elmi ekspedisiyalarda, elmi tədbirlərdə iştirak etmək, elmi məruzələrlə çıxış etmək və ya tövsiyələr vermək üçün onları Azərbaycan Respublikasına dəvət etmək;

4.1.10. Azərbaycan alimlərini beynəlxalq elmi qurumların mükafatlarını almaq, beynəlxalq qrant layihələrində və müsabiqələrdə iştirak üçün təqdim etmək;

4.1.11. xarici ölkələrin müvafiq qurumları ilə təcrübə mübadiləsi etmək;

4.1.12. beynəlxalq elmi laboratoriyalar təsis etmək, onların fəaliyyətini təşkil etmək;

4.1.13. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.1.14. strukturuna daxil olan elmi müəssisələrin fəaliyyətini tənzimləmək və inkişafına dəstək vermək;

4.1.15. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, strukturuna daxil olan qurumların yenidən təşkili və ləğvi barədə qərarlar qəbul etmək;

4.1.16. elmi innovasiya fəaliyyəti və fəaliyyət istiqamətlərinə uyğun sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

4.1.17. əməkdaşlarının əmək və sosial-məişət şəraitinin, maddi təminatının yaxşılaşdırılması və sağlamlığının qorunması üçün tədbirlər görmək;

4.1.18. Akademiyanın ehtiyacları üçün əsaslı tikinti aparılması, tikinti obyektlərinin yenidən qurulması və təmiri ilə bağlı işlər görmək;

4.1.19. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, problem şuraları, komitələr, komissiyalar yaratmaq və onların fəaliyyətini təşkil etmək;

4.1.20. Akademiyanın inkişafı fondunu yaratmaq və fəaliyyətini təşkil etmək;

4.1.21. həyata keçirdiyi elmi tədqiqatlar üzrə monitorinqlər aparmaq, elmi ekspedisiyalar, çöl təcrübələri təşkil etmək;

4.1.22. strukturuna daxil olan qurumlarda aparılan elmi tədqiqatlar üzrə ekspertizalar təşkil etmək və səmərəliliyin qiymətləndirilməsi ilə bağlı tədbirlər həyata keçirmək;

4.1.23. strukturuna daxil olan qurumların müvafiq dövr üçün elmi fəaliyyətini təhlil etmək və tövsiyələr vermək;

4.1.24. elmi kəşf və ixtiraların ekspertizasında iştirak etmək;

4.1.25. doktorantura və dissertantlıq yolu ilə ixtisaslı elmi kadrlar hazırlamaq;

4.1.26. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, tarix və mədəniyyət abidələrinin qorunmasında iştirak etmək, həmçinin abidələrin tədqiqini təmin etmək;

4.1.27. rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

4.1.28. ensiklopediyalar, toplular, tədqiqat əsərləri və digər çap media məhsulları nəşr etmək;

4.1.29. xaricdə yaşayan görkəmli azərbaycanlı alimlərlə əlaqələri inkişaf etdirmək, elmi diasporla iş aparmaq, qrant layihələrində birgə iştirak məqsədilə tədbirlər görmək;

4.1.30. mükafatlar təsis və təqdim etmək, müsabiqələr keçirmək və qrantlar vermək;

4.1.31 konfranslar, müşavirələr, seminarlar və digər tədbirlər təşkil etmək və keçirmək;

4.1.32. Akademiya üzvlərini, strukturuna daxil olan qurumların işçilərini dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.1.33. Akademiyanın strukturuna daxil olan qurumların digər elmi müəssisə və təşkilatlarla, təhsil müəssisələri ilə əlaqəli fəaliyyəti üçün tədbirlər görmək;

4.1.34. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Akademiyanın üzvləri

5.1. Akademiyanın üzvləri bu Nizamnaməyə uyğun olaraq seçilmiş həqiqi, müxbir, xarici və fəxri üzvlərdən ibarətdir.

5.2. Akademiyanın həqiqi və müxbir üzvlərinin sayını Akademiyanın Ümumi Yığıncağının qərarına əsasən Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

5.3. Akademiyanın həqiqi üzvləri (akademikləri) Azərbaycan Respublikasının vətəndaşı olan, elmi istiqamətlər üzrə geniş tədqiqatlar aparan, elmi yeni biliklərlə zənginləşdirən, elmi məktəblər yaradan Akademiyanın müxbir üzvləri sırasından seçilirlər.

5.4. Akademiyanın müxbir üzvləri elmin inkişafında görkəmli xidmətləri olan, onu dəyərli tədqiqatları ilə zənginləşdirən Azərbaycan Respublikası vətəndaşları sırasından seçilirlər.

5.5. Akademiyanın xarici üzvləri xarici dövlətlərin dünya və Azərbaycan elminə dəyərli töhfələr verən alimləri sırasından seçilirlər.

5.6. Akademiyanın fəxri üzvləri dünya miqyasında dövlət, ictimai, elm və mədəniyyət xadimləri kimi tanınmış Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sırasından seçilirlər.

5.7. Akademiyanın həqiqi və müxbir üzvləri ömürlük seçilirlər.

5.8. Akademiyanın həqiqi və ya müxbir üzvü Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, Rəyasət Heyətinin qərarı ilə Akademiyanın xarici üzvü hesab edilir.

5.9. Akademiyanın hər bir üzvü Akademiyanın elmi bölmələrindən (bundan sonra – elmi bölmə) birinin tərkibində təmsil olunur.

5.10. Akademiyanın üzvləri Akademiyanın Ümumi Yığıncağında, Rəyasət Heyətinin iclaslarında, tərkibində olduqları elmi bölmənin Ümumi Yığıncağının, Rəyasət Heyətinin və Elmi Şurasının iclaslarında iştirak edirlər.

5.11. Akademiyanın üzvü başqa elmi bölmənin işində və iclaslarında bölmə üzvlərinin bütün hüquqlarından (seçkilərdə səsvermə hüququ istisna olmaqla) istifadə etməklə iştirak edə bilər.

5.12. Akademiyanın xarici və fəxri üzvü Akademiyanın Ümumi Yığıncağının və tərkibində olduğu elmi bölmənin Ümumi Yığıncağının işində məşvərətçi səs hüququ ilə iştirak edir.

5.13. Akademiyanın üzvü elmi tədqiqatların inkişafına və beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsinə dair təkliflərini tərkibində olduğu elmi bölməyə və ya Rəyasət Heyətinə təqdim edir.

5.14. Akademiya üzvlərinin seçkiləri üç ildə bir dəfədən az olmayaraq keçirilir.

5.15. Akademiyanın həqiqi, xarici və fəxri üzvləri Akademiyanın (elmi bölmənin) Ümumi Yığıncağında iştirak edən Akademiyanın həqiqi üzvləri, Akademiyanın müxbir üzvləri isə Akademiyanın (elmi bölmənin) Ümumi Yığıncağında iştirak edən həqiqi və müxbir üzvləri tərəfindən seçilirlər.

5.16. Akademiyanın həqiqi və müxbir üzvləri gizli səsvermə yolu ilə, üçdə iki səs çoxluğu ilə, xarici və fəxri üzvləri isə açıq səsvermə yolu ilə, sadə səs çoxluğu ilə seçilirlər.

### 6. Akademiyanın idarə olunması və strukturu

6.1. Akademiyanın ali idarəetmə orqanı Akademiyanın Ümumi Yığıncağıdır.

6.2. Akademiyanın kollegial icra orqanı Rəyasət Heyətidir.

6.3. Akademiyanın fəaliyyətinə Akademiyanın prezidenti rəhbərlik edir.

6.4. Akademiyanın strukturunu və işçilərinin say həddini Akademiyanın təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

### 7. Akademiyanın Ümumi Yığıncağı

7.1. Akademiyanın Ümumi Yığıncağı onun həqiqi, müxbir, xarici və fəxri üzvlərindən ibarətdir.

7.2. Akademiyanın Ümumi Yığıncağı:

7.2.1. Akademiyanın Nizamnamə Komissiyasının təqdimatı ilə Akademiyanın nizamnaməsini və nizamnaməsində dəyişiklikləri qəbul edir və təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

7.2.2. Akademiyanın prezidentini seçir və təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

7.2.3. Rəyasət Heyəti üzvlərinin sayını və Rəyasət Heyətinin tərkibini təsdiq edir;

7.2.4. Akademiyanın vitse-prezidentlərini, akademik katibini, regional elmi bölmələrin sədrlərini, habelə Rəyasət Heyətinin digər üzvlərini 5 (beş) il müddətinə (bu Nizamnamənin 8.5-ci bəndi nəzərə alınmaqla) seçir;

7.2.5. Azərbaycan Milli Elmlər Akademiyasına seçkilərin təşkili və keçirilmə qaydası haqqında əsasnaməni və həmin əsasnamədə dəyişiklikləri təsdiq edir;

7.2.6. Akademiyanın həqiqi, müxbir, xarici və fəxri üzvlərini seçir;

7.2.7. Rəyasət Heyətinin bütün üzvlərinin buraxılması və yenidən seçilməsi barədə əsaslandırılmış qərar qəbul edir;

7.2.8. Akademiyanın Ümumi Yığıncağının iclaslarının Rəyasət Heyəti tərəfindən təqdim edilmiş gündəliyini müzakirə və təsdiq edir;

7.2.9. Rəyasət Heyətinin təqdimatı ilə elmi tədqiqatların əsas istiqamətlərini müzakirə və təsdiq edir;

7.2.10. Akademiyanın və Rəyasət Heyətinin fəaliyyəti haqqında illik hesabatı müzakirə və təsdiq edir, habelə ölkə üzrə il ərzində əldə olunmuş mühüm elmi nəticələri müzakirə edir və tövsiyələr verir;

7.2.11. Akademiyanın Nizamnamə Komissiyasının sədrini Akademiyanın Ümumi Yığıncağında iştirak edən üzvlərin üçdə iki səs çoxluğu ilə açıq səsvermə yolu ilə seçir və Akademiyanın Nizamnamə Komissiyasının tərkibini təsdiq edir;

7.2.12. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Rəyasət Heyətinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla verdiyi təqdimat əsasında elmi bölmələrin yaradılması, yenidən təşkili və ləğvi barədə qərar qəbul edir;

7.2.13. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Rəyasət Heyətinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla verdiyi təqdimat əsasında Akademiyanın strukturunda elmi müəssisələrin yaradılması, yenidən təşkili və ləğvi barədə qərar qəbul edir.

7.3. Akademiyanın Ümumi Yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılır.

7.4. Akademiyanın Ümumi Yığıncağı Akademiya və Rəyasət Heyəti üzvlərinin, o cümlədən Akademiya prezidentinin, vitse-prezidentlərin, akademik katibin və regional elmi bölmə sədrlərinin seçkiləri zamanı Akademiyanın həqiqi üzvlərinin azı üçdə iki hissəsi, qalan məsələlər üzrə Akademiyanın həqiqi və müxbir üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

7.5. Akademiyanın Ümumi Yığıncağının qərarları bu Nizamnamədə nəzərdə tutulmuş hallar istisna olmaqla, sadə səs çoxluğu ilə açıq səsvermə yolu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

7.6. Akademiyanın nizamnaməsi və nizamnaməsində dəyişiklik Akademiyanın Ümumi Yığıncağında iştirak edən həqiqi və müxbir üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

7.7. Akademiyanın Ümumi Yığıncağının keçirilməsi vaxtı Rəyasət Heyəti tərəfindən təyin olunur və elan edilir.

7.8. Akademiyanın üzvləri, elmi bölmələr və elmi müəssisələr tərəfindən Akademiyanın Ümumi Yığıncağında müzakirə olunacaq məsələlərə dair təkliflər Rəyasət Heyətinə təqdim edilir. Akademiyanın Ümumi Yığıncağının iclaslarının gündəliyini Rəyasət Heyəti tərtib edir.

### 8. Rəyasət Heyəti

8.1. Rəyasət Heyəti Akademiyanın prezidentindən, vitse-prezidentlərindən, akademik katibindən və regional elmi bölmə sədrlərindən ibarətdir. Akademiyanın digər həqiqi üzvləri də Rəyasət Heyətinin üzvü seçilə bilərlər.

8.2. Rəyasət Heyətinin tərkibi Akademiya prezidentinin təqdimatı ilə bu Nizamnamənin 7.2.3-cü yarımbəndinə uyğun olaraq formalaşdırılır.

8.3. Rəyasət Heyətinin üzvləri Akademiyanın Ümumi Yığıncağında iştirak edən həqiqi üzvlərin üçdə iki səs çoxluğu ilə gizli səsvermə yolu ilə seçilirlər.

8.4. Rəyasət Heyətinin bütün üzvlərinin seçkiləri 5 (beş) ildən bir keçirilir.

8.5. Rəyasət Heyətinin üzvü vəfat etdikdə və ya öz ərizəsi əsasında üzvlükdən çıxdıqda, Akademiyanın Ümumi Yığıncağı Rəyasət Heyətinin növbəti seçkisinə qədər qalan müddət üçün (90 (doxsan) təqvim günündən az olmamaqla) Rəyasət Heyətinin yeni üzvünü seçir.

8.6. Rəyasət Heyətinin iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Rəyasət Heyətinin qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə açıq səsvermə yolu ilə qəbul olunur.

8.7. Rəyasət Heyəti hər il Akademiyanın apardığı elmi tədqiqatların nəticələri və öz fəaliyyəti haqqında Akademiyanın Ümumi Yığıncağına hesabat verir.

8.8. Rəyasət Heyəti:

8.8.1. Akademiyanın Ümumi Yığıncaqları arasındakı dövrdə Akademiyanın fəaliyyətini idarə edir, Akademiyanın Ümumi Yığıncağının qərarlarını icra edir;

8.8.2. Akademiyanın Ümumi Yığıncağının iclaslarının vaxtını təyin edir, iclasları çağırır və keçirir;

8.8.3. Akademiyanın apardığı elmi tədqiqat işlərinin planını təsdiq edir;

8.8.4. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Akademiyanın strukturuna daxil olan müəssisələrin strukturunu müəyyən edir;

8.8.5. Akademiyanın bayrağı, habelə elmi bölməsi haqqında əsasnamələri təsdiq edir;

8.8.6. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Aparatının əsasnaməsini və strukturunu təsdiq edir;

8.8.7. regional elmi bölmələrin rəyasət heyətləri üzvlərinin sayını və tərkibini təsdiq edir;

8.8.8. Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Akademiyanın fəaliyyətinə dair illik hesabat təqdim edir;

8.8.9. Akademiyanın inkişafı fondunu yaradır, həmin fondda toplanan maliyyə vəsaitinin Akademiya əməkdaşlarının sosial müdafiəsinə, mükafatlandırılmasına və elmin inkişafı üçün zəruri məsələlərin həllinə yönəldilməsini təmin edir;

8.8.10. Akademiyanın ştat cədvəlini təsdiq edir;

8.8.11. Akademiyada əqli mülkiyyət hüquqlarının, dövlət və kommersiya sirlərinin, xidməti istifadə üçün nəzərdə tutulan informasiyanın qorunmasını təmin edir;

8.8.12. Akademiyanın fəaliyyət istiqamətləri üzrə elmi sessiyaların, konfransların, simpoziumların, elmi festivalların, forumların və digər tədbirlərin keçirilməsi ilə bağlı məsələləri həll edir;

8.8.13. Akademiyanın nəşriyyat işi sahəsində fəaliyyət planlarını təsdiq edir və yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

8.8.14. çap mediası və onlayn media subyekti təsis etmək barədə qərar qəbul edir, jurnalların baş redaktorlarını vəzifəyə təyin və vəzifədən azad edir, habelə redaksiya heyətlərinin tərkibini təsdiq edir;

8.8.15. Akademiyanın beynəlxalq elmi əlaqələrini təşkil edir;

8.8.16. Azərbaycan elmi qarşısında xidmətləri olan və elmi-ədəbi əlaqələrdə fəal iştirak edən xarici ölkə alimlərinə, həmçinin ictimai xadimlərə və ya mədəniyyət xadimlərinə "Azərbaycan Milli Elmlər Akademiyasının fəxri doktoru" və ya "Azərbaycan Milli Elmlər Akademiyasının fəxri professoru" adları verir və fəxri doktor və ya fəxri professor diplomları təqdim edir;

8.8.17. elmi tədqiqat işlərinin nəticələrinin tətbiqi üçün təkliflər verir;

8.8.18. Akademiyanın vitse-prezidentlərinin və regional elmi bölmə sədrlərinin elmi bölmələrin fəaliyyəti barədə hesabatını dinləyir;

8.8.19. Akademiyanın fəaliyyətinə dair illik hesabatı Akademiyanın Ümumi Yığıncağının müzakirəsinə təqdim edir;

8.8.20. üzvləri arasında vəzifə bölgüsü aparır, səlahiyyətlərinə aid kadr məsələlərini həll edir;

8.8.21. Akademiyanın vəzifəli şəxsləri və strukturuna daxil olan qurumlar tərəfindən bu Nizamnaməyə əməl olunmasına nəzarət edir;

8.8.22. fəaliyyətini təmin etmək məqsədilə məşvərətçi orqanlar, həmçinin fundamental və tətbiqi problemlər, regional məsələlər üzrə elmi şuralar, komissiyalar, mərkəzlər və digər orqanlar yaradır, onların tərkibini müəyyən edir və sədrlərini təyin edir;

8.8.23. Akademiyanın illik büdcəsini təsdiq edir, dövlət büdcəsindən ayrılan və qanunla qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitin təyinatı üzrə xərclənməsinə nəzarət edir;

8.8.24. növbəti maliyyə ili üçün Akademiyanın büdcə maliyyələşdirilməsi planının istiqamətlərini və prioritetlərini müəyyən edir, dövlət büdcəsinin tərtibinə dair təkliflər hazırlayır;

8.8.25. müzakirə etdiyi məsələlər barəsində qərarlar qəbul edir və icrasına nəzarət edir.

8.9. Akademiyanın vitse-prezidenti və regional elmi bölmənin sədri rəhbərlik etdiyi elmi bölmənin Ümumi Yığıncağının (Rəyasət Heyətinin) və Elmi Şurasının işini təşkil edir.

8.10. Akademiyanın akademik katibi Rəyasət Heyətinin iclaslarını təşkil edir və Rəyasət Heyətinin fəaliyyətinin elmi müəssisələrlə əlaqələndirilməsini təmin edir.

8.11. Akademiyanın akademik katibi vəzifəsi Rəyasət Heyətinin qərarı ilə vitse-prezidentlərdən birinə həvalə edilə bilər.

### 9. Akademiyanın prezidenti

9.1. Akademiyanın prezidenti Akademiyanın Ümumi Yığıncağında Akademiyanın həqiqi üzvləri sırasından seçilir və Azərbaycan Respublikasının Prezidenti tərəfindən həmin vəzifəyə təsdiq edilir.

9.2. Akademiyanın prezidenti Akademiyanın Ümumi Yığıncağında iştirak edən həqiqi üzvlərin üçdə iki səs çoxluğu ilə gizli səsvermə yolu ilə 5 (beş) il müddətinə seçilir.

9.3. Akademiyanın prezidenti:

9.3.1. Akademiyanın fəaliyyətini təşkil edir;

9.3.2. Akademiyanın Ümumi Yığıncağına və Rəyasət Heyətinin iclaslarına sədrlik edir;

9.3.3. Akademiyanın əmlakından istifadə və maliyyə vəsaiti barədə sərəncam verir;

9.3.4. Akademiyanı təmsil edir, müqavilələr bağlayır, etibarnamələr verir və digər hüquqi hərəkətləri həyata keçirir;

9.3.5. dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitinin Akademiyanın müəssisələri arasında bölgüsünü təsdiq edir;

9.3.6. Azərbaycan Respublikası Prezidentinin verdiyi səlahiyyətlər əsasında beynəlxalq müqavilələr imzalayır;

9.3.7. Rəyasət Heyəti Aparatının işçilərini və Rəyasət Heyətinin təsdiq etdiyi nomenklatur çərçivəsində digər işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, işçilər barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

9.3.8. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Akademiyanın elmi müəssisəsinin (regional elmi bölmə istisna olmaqla) rəhbərini (elmi müəssisənin tərkibində olduğu elmi bölmənin Ümumi Yığıncağında gizli səsvermə yolu ilə 5 (beş) il müddətinə seçildikdən və Rəyasət Heyəti tərəfindən təsdiq olunduqdan sonra) həmin vəzifəyə təyin və vəzifədən azad edir;

9.3.9. Akademiyanın elmi müəssisəsi (regional elmi bölmə istisna olmaqla) rəhbərinin elmi işlər üzrə müavinini (elmi bölmənin Elmi Şurasında 5 (beş) il müddətinə seçildikdən və Rəyasət Heyəti tərəfindən təsdiq olunduqdan sonra) həmin vəzifəyə təyin və vəzifədən azad edir;

9.3.10. Rəyasət Heyətinin Aparatı və Akademiyanın strukturuna daxil olan digər qurumlar üçün icrası məcburi olan daxili sərəncam və əmrlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

9.3.11. Akademiyanın strukturuna daxil olan qurumlarda monitorinqlər aparılması, strateji fəaliyyət planlarının hazırlanması, ekspertiza işlərinin təşkili məqsədilə mütəxəssislərdən ibarət işçi qruplar, komissiyalar, eləcə də koordinasiya və idarəetmə şuraları yaradır.

9.4. Akademiyanın prezidenti müvəqqəti olmadıqda, səlahiyyətlərinin icrasını vitse-prezidentlərdən birinə həvalə edə bilər.

### 10. Elmi bölmə, regional elmi bölmə və regional elmi mərkəz

10.1. Elmi bölmə Akademiya üzvlərinin seçkisinin keçirilməsi, elm sahələri üzrə elmi tədqiqatların inkişafı, elmi fəaliyyətin səmərəli təşkili və elmi əməkdaşlığın təmin edilməsi məqsədilə yaradılır.

10.2. Regional elmi bölmə və regional elmi mərkəz Akademiyanın strukturuna daxil olan elmi müəssisədir.

10.3. Elmi bölmə, Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Rəyasət Heyətinin Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə razılaşdırmaqla verdiyi təqdimat əsasında Akademiyanın Ümumi Yığıncağı tərəfindən yaradılır.

10.4. Elmi bölmənin yaradılması barədə qərar Akademiyanın Ümumi Yığıncağında iştirak edən həqiqi üzvlərin üçdə iki səs çoxluğu ilə gizli səsvermə yolu ilə qəbul edilir.

10.5. Elmi bölmələrin fəaliyyətinə ümumi rəhbərliyi Akademiyanın vitse-prezidentləri, regional elmi bölmələrin fəaliyyətinə ümumi rəhbərliyi regional elmi bölmələrin sədrləri həyata keçirirlər.

10.6. Elmi bölmənin (regional elmi bölmə istisna olmaqla) ali idarəetmə orqanı bu bölmədə birləşən Akademiya üzvlərindən ibarət Ümumi Yığıncaqdır.

10.7. Elmi bölmənin (regional elmi bölmə istisna olmaqla) Ümumi Yığıncağının iclasları arasındakı dövrdə onun işini elmi bölmənin Elmi Şurası həyata keçirir.

10.8. Elmi bölmənin (regional elmi bölmə istisna olmaqla) Elmi Şurasının tərkibi Akademiyanın həqiqi və müxbir üzvləri sırasından, həmin elmi bölmənin Ümumi Yığıncağında iştirak edən üzvlərin üçdə iki səs çoxluğu ilə gizli səsvermə yolu ilə 5 (beş) il müddətinə seçilir və Rəyasət Heyəti tərəfindən təsdiq olunur. Elmi bölmənin (regional elmi bölmə istisna olmaqla) Elmi Şurası üzvlərinin sayını Akademiyanın prezidenti müəyyən edir.

10.9. Tərkibində Akademiyanın elmi müəssisəsi olan elmi bölmə əhatə etdiyi elm sahələri üzrə Akademiya üzvlərinin seçkisini keçirir, elmi müəssisə rəhbərinin və onun elmi işlər üzrə müavininin seçkisini keçirərək təsdiq edilməsi üçün Rəyasət Heyəti qarşısında vəsatət qaldırır, habelə elmi müəssisənin elmi katibini və elmi işçilərini seçir, bölməyə elmi-təşkilati rəhbərlik edir və elmi-metodik işi həyata keçirir.

10.10. Tərkibində Akademiyanın elmi müəssisəsi olmayan elmi bölmə əhatə etdiyi elm sahələri üzrə Akademiya üzvlərinin seçkisini keçirir, elmi müzakirələr təşkil edir, elmi-metodik kömək göstərir və tövsiyələr verir.

10.11. Elmi bölmə (regional elmi bölmə istisna olmaqla) Ümumi Yığıncağında seçilən Akademiyanın həqiqi və müxbir üzvlüyünə namizədlər barədə Akademiyanın Ümumi Yığıncağı qarşısında vəsatət qaldırır.

10.12. Regional elmi bölmələr və regional elmi mərkəzlər əhatə etdikləri regionların təbii sərvətlərini, tarixini, arxeologiyasını, mədəniyyətini, o cümlədən ədəbiyyatını və folklorunu öyrənmək işini təşkil edir, ölkənin sosial-iqtisadi inkişafının müxtəlif problemlərinin araşdırılmasında Akademiyanın səlahiyyətləri çərçivəsində iştirak edir, elmi tədqiqat fəaliyyəti ilə məşğul olurlar.

10.13. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Akademiyanın regional elmi bölməsinin ali idarəetmə orqanı onun Rəyasət Heyətidir.

10.14. Regional elmi bölmənin Rəyasət Heyəti regional elmi bölmənin sədrindən, sədr müavinlərindən, elmi katibindən və digər üzvlərdən ibarətdir. Regional elmi bölmənin Rəyasət Heyətinin üzvləri həmin bölmə üzrə Akademiyanın həqiqi və müxbir üzvlərindən və Akademiyanın Rəyasət Heyəti tərəfindən təyin edilən digər həqiqi və müxbir üzvlərdən, habelə strukturuna daxil olan elmi müəssisələrin rəhbərlərindən təşkil olunur.

10.15. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, regional elmi bölmənin sədri Akademiyanın Ümumi Yığıncağında iştirak edən həqiqi üzvlərinin üçdə iki səs çoxluğu ilə gizli səsvermə yolu ilə seçilir və Akademiyanın prezidenti tərəfindən həmin vəzifəyə təyin və vəzifədən azad edilir.

10.16. Regional elmi bölmənin Rəyasət Heyəti sədrinin müavini, elmi katibi və Rəyasət Heyətinin digər üzvləri (Akademiyanın həmin bölmə üzrə üzvləri istisna olmaqla) həmin elmi bölmə sədrinin təqdimatı əsasında Akademiyanın Rəyasət Heyəti tərəfindən həmin vəzifələrə təsdiq edilirlər.

10.17. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Akademiyanın regional elmi mərkəzinin rəhbərini Akademiyanın prezidenti həmin vəzifəyə təyin və vəzifədən azad edir.

### 11. Akademiyanın əmlakı və maliyyə fəaliyyətinin əsasları

11.1. Akademiyanın əmlakı təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, əldə etdiyi gəlirdən, ianələrdən, qrantlardan, cəlb olunan investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

11.2. Akademiya balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

11.3. Akademiyanın maliyyələşdirilməsi hər il dövlət büdcəsində ayrıca sətirlə göstərilir.

### 12. Akademiyada uçot və hesabat

12.1. Akademiya "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir.

12.2. Akademiya "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

### 13. Akademiyanın ləğvi və yenidən təşkili

Akademiyanın ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Rəssamların Ulu öndərə sevgi və ehtiramı

## Yaradıcılıq qurumunda Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbirlər davam edir

**"Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Azərbaycan Rəssamlar İttifaqı ölkə daxilində və xaricdə müxtəlif sərgilər, təqdimatlar keçirir. İttifaqın sərgi salonu 1 gün belə boş qalmır. Qarşıda keçirəcəyimiz tədbirlər də çoxdur".**



Bu fikirləri XQ-yə açıqlamasında Rəssamlar İttifaqının sədr müavini, Xalq rəssamı Ağaəli İbrahimov dedi. O daha sonra bildirdi:

– Bu günlərdə Naxçıvanda Ulu öndərin 100 illiyi ilə bağlı beynəlxalq festival təşkil olunub. Sonra "Azərsu" ASC ilə birlikdə həm uşaqların, həm də xalq rəssamlarının əsərlərindən ibarət sərgi keçirilib. Heydər Əliyevin 100 illiyi ilə bağlı Rəssamlar İttifaqında fərdi sərgilər təşkil edilir. Həmin sərgiləri Mədəniyyət Nazirliyi və Xətai Sənət Mərkəzi birlikdə keçirir. Mart ayında Sənət Mərkəzində 2 gün ardıcıl həvəskar rəssamların sərgisi oldu. Onun ardınca həmin salonda müsabiqə sərgimiz də keçirildi və yüzlərlə əsər nümayiş etdirildi. Bu, rəssam olmaq istəyən istedadlı uşaqlara, həvəskar rəngkarlara böyük stimul idi. Qaliblərə Xətai Rayon İcra Hakimiyyətinin hədiyyələri təqdim edildi.




Ustad sənətkarın dediyinə görə, ötən aylarda Rəssamlar İttifaqının təşəbbüsü ilə Xətai Sənət Mərkəzində gənc rəssam Tural Anaroğlunun Heydər Əliyevin portretlərindən və fəaliyyətini əks etdirən rəsmlərindən, avqust ayında qadınların əl işlərindən ibarət sərgilər açılıb. Qadın sənətkarların sərgisinə ayrı-ayrı bölgələrdən gətirilən əl işləri də daxil edilib:

– Həm Ulu öndərin yubileyinə, həm də 44 günlük qələbəmizə həsr edilmiş bu sərgi də uğurlu alınıb. Rəssamlarımızın elə əsərləri var ki, Naxçıvanda Heydər Əliyev Muzeyində saxlanılır. Hələ ümummilli liderin sağlığında Ömər Eldarov Naxçıvanda onun heykəlini yaradıb.

Heydər Əliyev rəssamlara çox böyük qayğı, diqqət göstərirdi. Ulu öndər tez-tez sərgilərimizdə iştirak edirdi. O, rəssamlarımızın bir çoxunu emalatxanalarla, mənzillə təmin edib. 1969-cu ildə hakimiyyətə gələndə imzaladığı ilk qərarlarından biri məhz rəssamlar üçün qalereya yaratmaqla bağlı olub.

Xalq rəssamı Ağaəli İbrahimov Ümummilli liderlə bağlı xatirələrini də bölüşdü:

–Ulu öndər 1975-ci ildə Elmlər Akademiyasında rəssamların sərgisinə gəlmişdi, Tahir Salahov da iştirak edirdi. Heydər Əliyev orada dedi ki, Azərbaycanda Rəssamlıq Akademiyası açmaq arzum var. Sonralar, o arzusunu da reallaşdırdı. Bir dəfə də Xocalı hadisələri ilə bağlı sərgimizə gəlmişdi. 2 il sonra yenə sərgiyə gəldi və əlini Xocalı faciəsini əks etdirən bir əsərə uzadıb, mənə qayıtdı ki, bu nədir, rəssamlar yeni əsərlər işləmirlər, bu əsəri 2 il əvvəl sərginizdə görmüşəm. Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov irəli keçərək bildirdi ki, bu əsəri Mədəniyyət Nazirliyi müəllifdən alıb və sərgi-muzeyə bağışlayıb.

Səttar Bəhlulzadənin "Ev muzeyi"nin açılışında iştirak edəndə Ulu öndər böyük rəssamın yaradıcılığı barədə elə danışdı ki, elə bildim, o fikirləri deyən peşəkar rəssamdır. Onu da qeyd edək ki, Rəssamlar İttifaqının Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgiləri ilin axırına kimi davam edəcək. Bu ayın əvvəlində gənc rəssamların əsərlərindən ibarət 3 sərgi keçiriləcək. Hazırda ittifaqın sərgi salonunda rəssamların Heydər Əliyevə həsr edilmiş qafik əsərlərindən ibarət sərgi davam edir.

***Ramilə QURBANLI***
***XQ***

# Qənirə Paşayevanın Türkiyə sevgisi ekranda

**Mərhum millət vəkili Qənirə Paşayevanın Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr etdiyi "Addım-addım Türkiyə" adlı sənədli filminin təqdimat mərasimi olub.**




Təqdimat mərasimində ölkənin tanınmış mədəni-ictimai xadimləri, Milli Məclisin deputatları, digər dövlət və ictimai təşkilat nümayəndələri, həmçinin mərhum millət vəkilinin ailə üzvləri, media mənsubları iştirak edib.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Qənirə Paşayevanın türk dünyası üçün əziz olmasını vurğulayıb: "Qənirə xanım bu ssenari haqqında mənə danışmışdı. O, bütün Türkiyəni gəzmək istəyində idi və böyük bir qismini də gəzmişdi. Amma, təəssüflər olsun ki, bu gün bizim aramızda yoxdur. Qənirə xanımın siyasi görüşlərindən əlavə hər zaman jurnalistik baxışı da özünü hiss etdirirdi".

Qənirə Paşayevanın əmisi, filologiya elmlər doktoru, professor Qəzənfər Paşayev, filologiya elmləri doktoru, professor Nizami Cəfərov Qənirə Paşayevanın ölkəmiz və Türkiyə üçün, türk dünyası üçün fəaliyyətindən bəhs ediblər.

Sonra film nümayiş olunub.

**XQ**

# "Şuşa: Türkün zirvəsi" filmi Daşkənddə

**Azərbaycan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı, "İsmayıllı yazarları" Ədəbi-İctimai Birliyinin hazırladığı, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəstəyi ilə ərsəyə gələn layihənin müəllifi Şahməmməd Dağlaroğlu, ssenari müəllifi və rejissoru Etibar Məmmədov, redaktoru Büllur Məmmədovadır.**




Əvvəl filmin yaradıcı heyəti Daşkənd şəhərindəki Heydər Əliyev parkında Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə ucaldılan abidəsi və Ulu Öndərin AMM-nin qarşısındakı abidəsi önünə gül dəstələri qoyublar.

Təqdimatda Mərkəzin əməkdaşı Kərim Məmmədzadə "Şuşa: Türkün zirvəsi" sənədli filminin əhəmiyyəti haqqında danışıb, ekran əsərinin Daşkənddə təqdimatının keçirilməsindən məmnun olduğunu bildirib.

Təqdimat mərasimində Şahməmməd Dağlaroğlu öz çıxışında deyib ki, "Şuşa: Türkün zirvəsi" sənədli filmində bu qədim şəhərin yaranması, mədəniyyət və təhsil mərkəzi kimi formalaşması, XIX əsrdə baş vermiş müxtəlif siyasi kataklizmlərin Şuşaya təsiri, XX əsrin müxtəlif tarixi dövrlərində Şuşanın ermənilər tərəfindən hücumlara və şəhərdə dinc əhalinin qırğınlara məruz qalması, XX əsrin sonlarında Şuşanın işğalı, şəhərdəki tarixi-dini abidələrin dağıdılması, özününküləşdirilməsi və özgəninkiləşdirilməsi, həmçinin 44 günlük Vətən müharibəsində Şuşanın işğaldan azad edilməsi barədə ətraflı məlumat verilir.

Filmin redaktoru Büllur Məmmədova isə qeyd edib ki, sənədli filmdə şəhərin məhz Türk dünyasının ayrılmaz parçası olduğu, Şuşadan çıxmış görkəmli şəxsiyyətlərin Türk dünyasının bütövləşməsi uğrunda yorulmaz fəaliyyətləri konkret tarixi faktlarla göstərilir.

Filmdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün Özbəkistan tərəfindən hər zaman və bütün formatlarda pislədiyi, Azərbaycanın ədalətli mövqeyini və 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqının işğalçılara qarşı mübarizəsini dəstəklədiyi, işğaldan azad edilmiş Qarabağ bölgəsində bərpa və yenidənqurma işlərində Azərbaycana qardaş köməyi etdiyi xüsusi vurğulanır.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

# Qarabağı Azərbaycana qaytaran "nida"



**AMEA Əlyazmalar İnstitutunda 8 Noyabr Zəfər Günü qarşısında "Bu da nida!" adlı tədbir keçirilib.**

İnstitutun baş direktoru, akademik Teymur Kərimli Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildiyini qeyd edib. O bildirib ki, 8 Noyabr Zəfəri müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, əsgər və zabitlərimizin rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsidir.

Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinin professoru, Rusiya EA Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aparıcı elmi işçisi, AYB Moskva bölməsinin sədri, yazıçı-publisist Abuzər Bağırov Qarabağ zəfərinin tarixi önəmini qeyd edib. O, ordumuzun Vətən müharibəsindəki möhtəşəm qələbəsinə həsr etdiyi "Zəfər nəğməsi" poemasından bir parçanı oxuyub. Sonra akademik Teymur Kərimlinin müəllifi olduğu "Şuşanamə" kitabından möhtəşəm qələbəmizi vəsf edən şeirlər, "Ali Baş Komandanım" zəfər marşı səsləndirilib və "Azərbaycan bayrağı" adlı musiqili videokliplər nümayiş olunub.

Sonda mərasim iştirakçıları "Bu da nida!" kitab sərgisi ilə tanış olublar.

***Ə.ƏLİYEV***
***XQ***

# XQ-NİN KİTAB RƏFİ




## İrəvan teatrının tarixi

"İrəvan Mədəni İrsinin Təbliği" İctimai Birliyinin "Qərbi Azərbaycanın mədəni irsi" layihəsi əsasında "İrəvan Dövlət Azərbaycan Dram Teatrının tarixi" adlı elmi-tarixi, publisistik monoqrafiya çap olunub.

Kitabın müəllifi Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, İrəvan Dövlət Azərbaycan Dram Teatrının rəhbəri İftixar Piriyevdir. Monoqrafiya Azərbaycan teatr sənətinin inkişafına əvəzsiz töhfələr verən Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaranma tarixini, təşəkkül və inkişaf mərhələlərini əhatə edir.

Teatrın həm İrəvan dövrünün, həm də deportasiyadan sonra Bakı şəhərində məskunlaşdığı illərdə fəaliyyətinin sənətşünaslıq tariximizdə ilk dəfə təcəssüm etdirildiyi "Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası"na töhfədir.

## Muğam sorağında

Vaqif Rüstəmovun ustad xanəndə Dədə Süleymanın ömür və sənət yoluna həsr olunmuş "Səsin sorağında…" kitabı işıq üzü görüb.

Uzunmüddətli axtarışdan sonra Seyid Şuşinskinin yetirməsi olmuş Süleyman




Abdullayevin "Qızıl fond"da saxlanılan ifalarını, mahnı və muğamlarını diskdə ərsəyə gətirə bilən müəllif ona hələ sağlığında söz verdiyi kitabı da artıq oxuculara təqdim etdi. Vaqif Rüstəmovun "Qaçaq Süleyman" və "Səsverən qaya" tarixi romanlarından sonra qələmə aldığı bu növbəti irihəcmli bədii-publisistik əsəri "Ön söz" və epiloqdan, ayrı-ayrı başlıqlarla verilmiş 10 fəsildən ibarətdir. Kitabda unudulmaz sənətkar, Əməkdar artist Süleyman Abdullayevin özünəməxsus səsi və ifa tərzindən bəhs




olunur, onun əziz xatirəsini bütün muğamsevərlərin əziz tutduğu göstərilir.

"Səsin sorağında…" kitabı "İmza" Nəşrlər Evundə çap edilib.

## Qarabağ ağrıları

Şair Nazilə Gültacın nəsr əsərlərindən ibarət ilk kitabı "Şəhid atası" adlanır.

Eyni adlı povestlə açılan kitabdakı nümunələr maraqlı süjeti, gerçək məzmunu, həyati problematikası ilə oxucunu düşündürür, xeyirxahlığa səsləyir. Həcmcə o qədər də böyük olmayan bu hekayələr uzun illərdən bəri həkim işləyən müəllifin böyük şəfqət duyğuları ilə yazılıb.

"Şəhid atası" povesti arxa cəbhə insanlarının övlad itkisindən doğan ölçüyəgəlməz ağrısından, təvazökarlığından danışır. Əsər saxta vətənpərvərlik demaqogiyasından, bayağı qəhrəmanlıq ritorikasından uzaqdır. Nazilə Gültac şəhidi də, onun ailə üzvlərini də necə varsa, elə, bəzək-düzəksiz təsvir eləməyə, şəhadətin təkcə ön cəbhə deyil, həm də arxa cəbhədə olduğunu göstərməyə çalışıb və və buna uğurla nail ola bilib.

***XQ***

# Mədəniyyət paytaxtının təhsil ocaqları

**Nizami Kino Mərkəzində Elm və Təhsil Nazirliyi və İctimai TV-nin birgə hazırladığı "Şuşa maarifi" filmi ictimaiyyətə təqdim edilib.**





Mədəniyyət nazirinin müşaviri, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu baxışdan əvvəl filmin həsr olunduğu Şuşa maarifinin ölkə tarixində mütərəqqi rolunu vurğulayıb. Şəhərin maarif ocaqlarının Azərbaycan təhsilinə verdiyi töhfələrə toxunan natiq aparılan təmir-quruculuq işlərindən sonra orada sabahın dahilərini yetirən yeni məktəb şəbəkəsinin formalaşacağına inamını bildirib.

Sonra sənədli kinolent nümayiş etdirilib. Azərbaycanın ilk dünyəvi məktəbi olmuş Şuşa qəza məktəbi ilə başlanan tarixdən söz açan filmdə şəhərin xalqımız üçün tarixi və mədəni əhəmiyyəti, maarifçilik sahəsində nailiyyətləri qabarıq göstərilir. Xronikal ekran əsərində Şuşanın maarif tarixini yaradan şəxsiyyətlər barədə danışılır, eləcə də Azərbaycanın təhsil və elm sahəsinə tanınmış alimlər, sənətçilər, ziyalılar bəxş etməsi göstərilir.

İzləyicilər maraqla baxdıqları 50 dəqiqəlik filmin ssenari müəllifləri Cəsarət Valehov və Ramil Ələkbərov, rejissoru isə Elçin Qasımovdur.

Mərasimdə Mədəniyyət, Elm və Təhsil və nazirliklərinin əməkdaşları, millət vəkilləri, 44 günlük Vətən müharibəsində döyüşmüş müəllimlər, tələbələr və digər qonaqlar iştirak ediblər.

***XQ***

Beynəlxalq həyat

# ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyaları

## Embarqolar enerji və maliyyə sektorlarına yönəlib

**ABŞ Rusiyaya qarşı növbəti sanksiyasını elan etdi. Noyabrın 2-də dərc edilmiş sanksiyaları paketi mövcud məhdudiyyətlərdən yan keçməyin mümkün yollarını maksimal şəkildə bloklamaq siyasətini davam etdirir. Siyahıda çox sayda Rusiya şirkətləri, bankları və hətta qurumları da var. Ekspertlərin fikrincə, yeni sanksiyalar ən çox Rusiyanın yanacaq, enerji və maliyyə sektorlarına təsir göstərəcək.**




Mütəxəssislər deyirlər ki, ABŞ-ın anti-Rusiya sanksiyalarının (SND) son paketinin özəl cəhəti onun daxil olduğu müxtəlif sənaye şirkətlərinin böyük siyahısının olmasındadır. Üstəlik, bu şirkətlərin çoxu Rusiya yurisdiksiyasından kənarda qeydiyyata alınıb və Rusiyanın hüquqi şəxslərinin xarici törəmə müəssisələri deyil. Belə ki, SDN siyahısına BƏƏ-dən 15 şirkət daxil edilib. Bunun baş verməsinin ehtimal olunan səbəbləri Xarici Aktivlərə Nəzarət İdarəsi (OFAC)-ın bu şirkətlərdən biri olan ARX ilə bağlı şərhində göstərilir: "Şirkət sanksiyaya məruz qalmış Xarici Ticarət Bankından (VTB) dollara konvertasiya ilə rublun köçürülməsi yollarının tapılmasında iştirak edib, həmçinin sanksiyalarla üzləşdiyi halda müştəri aktivlərinin müəyyən edilməsi risklərini azaldıb. Analitiklər vurğulayırlar ki, hər bir yeni sanksiya siyahısında təkcə siyahıya daxil edilmiş Rusiya şəxslərinin "törəmə şirkətləri" deyil, getdikcə daha çox xarici şirkət və onlarla əlaqəli şəxslər yer alırlar. Belə ki, yeni siyahıya BƏƏ, Türkiyə, Kipr, İsveç, Latviya və İrlandiyanın sakinləri daxildir. Mütəxəssislərin sözlərinə görə, yeni sanksiyalar "dolların maliyyə sisteminə çıxışını daraltmaq, qadağan olunmuş malların tədarükünü məhdudlaşdırmaq və Rusiya Federasiyasının texnoloji və istehsal sektorlarına zərbə vurmaq şəklində əvvəllər seçilmiş yolu davam etdirir".

ABŞ Xəzinədarlığı Rusiyanın NOVATEK şirkətinin ikinci LNG layihəsi olan "Arctic LNG-2"-nin icrasına cavabdeh olan "Arctic LNG-2 MMC"ni sanksiyalar siyahısına əlavə edib. Təxminən 25 milyard dollar dəyərində olan bu layihə ildə 6,6 milyon tonluq üç mayeləşdirmə xəttin tikintisini nəzərdə tutur. Birincisi ilin sonuna qədər işə salınmalı və daşımaların 2024-cü ilin əvvəlində başlanacağı gözlənilir. Layihənin ikinci xətti 2024-cü ildə, üçüncü xətti 2026-cı ildə tikilməlidir. Rusiya mətbuatının yazdığına görə, sanksiyalar o deməkdir ki, "Arctic LNG-2" ilə bütün əməliyyatlar qadağandır. Burada əsas sual ondan ibarərdir ki, sanksiyaların tətbiqindən sonra NOVATEK layihədən LNG-ni uzunmüddətli müqavilələr əsasında sata biləcəkmi, yoxsa istehlakçılar, o cümlədən layihənin səhmdarları onları yerinə yetirməkdən imtina edəcəklər? Mütəxəssislərin sözlərinə görə, sanksiyalar çox güman ki, müqavilələrin yerinə yetirilməsinə mane olacaq, çünki yük üçün ödənişlər mümkün olmayacaq.

Bundan başqa, Rusiyanın yeddi bankı ABŞ-ın bloklayıcı sanksiyalarına məruz qalıb. Eyni zamanda SDN siyahısına daxil edilməsi bank üçün ABŞ-dakı aktivlərinin dondurulması və hər hansı amerikalı kontragentlə dollarla hesablaşmaların qadağan edilməsi deməkdir. Qeyd edilir ki, ümumilikdə, 2022-ci ilin fevral ayından SDN siyahısına 40-dan çox bank daxil edilib. Mütəxəssilərin sözlərinə görə, əgər əvvəllər iri və ya dövlət bankları sanksiyalara məruz qalırdısa, indi kiçik banklar da siyahıya salınır. Rusiya KİV-i yazır ki, əksər banklar bu xəbərə təəccüblə yanaşmayıblar. Həmin bankların şərhində qeyd olunur ki, sanksiyalar "bankın işinə ciddi təsir etməyəcək", "müştərilər heç bir şəkildə məhdudlaşdırıcı tədbirlərin təsirini hiss etməyəcəklər".

Ancaq Sankt-Peterburq Birjasının OFAC-ın sanksiya siyahısına salınması artıq onun fəaliyyətinə təsir göstəri. Belə ki, noyabrın 2-də saat 18:00-da saytda xarici və Rusiya səhmlərinin ticarəti dayandırılıb. Eyni zamanda OFAC 2024-cü il yanvarın 31-dək Sankt-Peterburq Birjasının qiymətli kağızlarından çıxmaq üçün lisenziya verib. Birjanın özü iddia edir ki, tətbiq edilən sanksiyalar müştəri aktivlərinə təsir etməyəcək. Lakin Moskva birjasında keçirilən hərraclarda Sankt-Peterburq Birjasının səhmlərinin günün sonunda 19 faiz ucuzlaşdığı qeydə alınmışdı. Bazar analitikləri də etiraf edirlər ki, Sankt-Peterburq Birjasının sanksiyalarına məruz qalması sanksiyalar narahatlıq doğurur. Ona görə ki, sanksiyaların tətbiq olunması birjada dollarla hesablaşmaların aparılmasının və səhmlərin ticarətinin tamamilə dayandırılmasına gətirib çıxacaraq. Rusiya qəzetləri yazırlar ki, Sankt-Peterburq Birjasının SDN siyahısına daxil edilməsindən sonra "təkcə dost olmayan ölkələrdən deyil, şərti dost ölkələrdən olan əcnəbilər də işləməyəcəklər, çünki ikinci dərəcəli sanksiyaların riskləri hamını qorxudur".

***SE LAY***
***XQ***

# İsrail qüvvələri Qəzzaya doğru irəliləyir

**Qəzza zolağında ağır döyüşlərin heç olmasa qısa müddətə dayandırılması və getdikcə ağırlaşan humanitar böhranın qarşısının alınması üçün diplomatik səylər davam edir. Bu istiqamətdə ən çox ABŞ, Türkiyə, və Qətər rəsmiləri fəallıq nümayiş etdirirlər.**





Bu gün dünyanın bir çox dövlətləri Yaxın Şərq düyününü açılması üçün mövqeyini ortaya qoyur. Bəzən bu təşəbbüslər sadəcə gözdən pərdə asmağa bənzəyir. Ona görə ki, sülh çağırışları çoxalsa da, ortada real nəticə yoxdur. Nə qədər ki, silahlar susmayıb, bölgədə ağır zorakılıqlar davam edir.

ABŞ prezidenti Co Bayden dünən bir daha İsrail və HƏMAS yaraqlıları arasındakı müharibəyə "humanitar fasilə" verməyə çağırıb. O, "fasilə məhbusları çıxarmaq üçün vaxt vermək deməkdir. Vaxt verin!" – deyib.

Birləşmiş Ştatların dövlət katibi Entoni Blinken dünən yenidən İsrailə səfər edib. Bu, onun oktyabrın 7-də Yaxın Şərqdə müharibə başlayandan sonra regiona ikinci səfəridir. O, oktyabrın 11-də İsraildə olub. Blinken İsrailin baş naziri Benyamin Netanyahu və digər rəsmi şəxslərlə görüşüb.

Qlobal mediada yayımlanan xəbər və şərhlərə görə, dövlət katibi ölkəsinin bir daha İsrailin HƏMAS-a qarşı sərt mücadiləsini birmənalı olaraq dəstəklədiyini bildirib, eyni zamanda Təl-Əvivdən mülki əhalinin müdafiəsi istiqamətində lazım olan addımları atmağa çağırıb.

Blinkenin Təl-Əvivdən Ankaraya gedəcəyi, burada türkiyəli həmkarı Fidan Hakan ilə regiondakı ağır durumdan çıxış yollarını müzakirə edəcəyi gözlənilir. ABŞ etiraf edir ki, Türkiyə regionun aparıcı dövlətlərindən biridir. Ağ ev Ankaranın tərəflər arasında sülh yaradılması məqsədilə vasitəçilik etməyə hazır olması ilə bağlı təşəbbüsünü müsbət qarşılayır. Hələlik Təl-Əviv buna razılıq vermir.

Qeyd edək ki, dünyanın aparıcı dövlətlərinin diplomatları milli maraqlarından çıxış edərək səmimi, qeyri-səmimi sülh çağırışlarında bulunduqları bir məqamda, 1967-ci ildən faktiki olaraq sudan, havadan və qurudan mühasirədə olan Qəzzada humanitar vəziyyət anbaan pisləşir. HƏMAS-la İsrail arasında müharibənin həlledici fazası başlayıb. İsrailin Müdafiə Qüvvələri yaraqlıları "yuvalarında taparaq" məhv etməyə çalışırlar.

Bəzən hər küçə və ev uğrunda amansız döyüşlər baş verir. Dünən İsrailin quru qoşunları cümə axşamı Qəzza şəhərinə doğru irəliləyib. HƏMAS-ın yeraltı sığınacaqlarında tez-tez amansız qarşıdurmalar baş verir. Hər iki tərəfdən itkilərin sayı artır.

Fələstinin Qızıl Aypara Cəmiyyətinin məlumatına görə, cümə axşamı səhər saatlarında Qəzza şəhərindəki Əl-Qüds xəstəxanası ətrafında partlayış səsləri eşidilib. İsrail rəsmiləri bundan əvvəl xəstəxanaya təcili təxliyə barədə xəbərdarlıq etsə də, BMT rəsmiləri bunun təhlükəli olduğunu deyib.

İndi Qəzzada hərə öz hayındadır. Yaxın günlər ərzində atəşkəsin elan olunacağına, ardınca da sülh danışıqlarının baş tutacağına ümidlərini itirən xarici vətəndaşlar mümkün qədər tez anklavı tərk etməyə çalışırlar. Bu, o qədər də asan iş deyil. Dünən yayılan xəbərlərə görə, ilkin siyahıda olan 500 nəfər xarici vətəndaşdan azı 320-si, eləcə də onlarla ağır yaralı qəzzalı İsrail, Misir və HƏMAS arasında razılaşma əsasında Misirə keçib. Bu məsələdə Qətərin vasitəçiliyi rəğbətlə qarşılanıb. Təxliyə olunanlar, əsasən, Avstraliya, Avstriya, Bolqarıstan, Çexiya, Finlandiya, İndoneziya, İtaliya, Yaponiya, İordaniya, Britaniya və ABŞ vətəndaşlarıdır.

Bu arada UNICEF agentliyi Qəzzada atəşkəs çağırışlarına məhəl qoyulmadığı təqdirdə fəsadların artmaqda davam edəcəyi, xüsusilə mühasirədə olan uşaqların daha böyük risk altında qalacağı barədə xəbərdarlıq edib.

HƏMAS qruplaşması ilə İsrail arasında münaqişənin davam etdiyi çətin dönəmdə humanitar yardım daşıyan yük maşınları Qəzza zolağının cənubundakı "Rəfah" keçid məntəqəsində gözləyir. İsrail hökuməti yanacağın Qəzzaya daxil olmasına icazə vermir, belə ki, yanacağı "ikili istifadə" məhsulu kimi təsnif edir və HƏMAS-ın ondan hərbi məqsədlər üçün istifadə edə biləcəyini deyir. Təl-Əviv, həmçinin HƏMAS-ın döyüşlərdə istifadə üçün böyük miqdarda yanacaq ehtiyatı saxladığını iddia edir.

Xatırladaq ki, oktyabrın 7-də HƏMAS yaraqlılarının İsrailin cənubuna hücumundan və təxminən 200-dən çox insanı girov götürməsindən sonra İsrail qrupu məhv etmək üçün Qəzzanı qurudan, dənizdən və havadan bombalayır və hərbi əməliyyatlarin miqyası genişlənir.

Qəzzanın Səhiyyə Nazirliyi oktyabrın 7-dən bəri İsrailin hücumları nəticəsində Aralıq dənizinin dar sahil boyu yerləşən anklavında 3648 uşaq olmaqla, azı 8796 fələstinlinin həlak olduğunu bildirib.

İsrail rəsmiləri HƏMAS-ın hücumu zamanı 1400 nəfərin öldüyünü qeyd edib. Hücumdan sonra İsrail HƏMAS-a müharibə elan edib və Qəzzaya qarşı davamlı bombardmanlar və yerüstü hərbi əməliyyatlar həyata keçirir.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) dövlət naziri Nura əl-Kaabi deyib ki, Yaxın Şərqdə daha geniş müharibə başlaya bilər. Həqiqtən, regionda əsəblər tarıma çəkilib və ehtiyatsız bir addım böyük müharibəyə səbəb ola bilər.

Bunun baş verməməsi üçün səbir, təmkin və sağlam düşüncəyə ehtiyac var. Ümid edək ki, dünya birliyi Yaxın Şərqdə ədalətli sülh naminə bu dəfə daha cəsarətli və qətiyyətli addımlar atacaq. Yetər ki, haqqın, ədalətin tərəfində durmağı bacarasan!

**Məsaim ABDULLAYEV**
**XQ**

Şəhidlərimiz

# Zəfər yolunun tovuzlu qəhrəmanı

**Milli Qəhrəman Naiq Nəsir oğlu Yusifovun qısa və əbədiyyət ünvanlı ömür yolundan söz açmaq istəyirəm. O ömür yolundan ki, qəhrəmanı 22 illik həyatın şirinliyini doyunca dadmayıb, acısını isə şərbət kimi başına çəkib.**



...1970-ci ilin qışı yaşlı nəslin yadında olar. Həftələr idi aravermədən, səpələyən qar həyət-bacanı, yolu- rizi, yeri- göyü başına almışdı. Hər tərəfi ağ örpəyə elə bürümüşdü ki, beş addımlıqdan gələni də seçmək olmurdu. Tovuzun Ağdam kəndinin belə sazaqlı-şaxtalı günlərindən biri – yanvarın 5-də Seyid Nəsirin oğul övladının dünyaya gəlişi böyük şadyanalıqla qarşılanmışdı. İstər qonum-qonşu, istərsə də qohum-əqraba onların evinə, gözaydınlığına tələsmişdilər. Ailənin dördüncü oğluna Naiq adı verilmişdi.

...1988-ci ildə orta məktəbi bitirən Naiqə poçtalyon "kişilik məktəbinə" çağırış vərəqəsi gətirdi. O vaxt evdən əsgərliyə yola salınan uşaqların sədası, məktubu Uzaq Şərqdən, Sibirdən, Kamçatkadan, Vladivostokdan gəlirdi. Naiqin isə bəxti gətirdi. Yaxın yerə düşdü. İkillik həqiqi hərbi xidmətini o vaxtkı Sovet Ordusunun Gürcüstanda yerləşən hərbi hissələrindən birində yerinə yetirdi və geri döndü.

Kənddə bineyi-qədimdən qonum-qonşu əsgərlikdən gələnin valideynlərinə gözaydınlığına gəlirlər. Bütün kənd camaatı elliklə gün təyin edir, yığılıb bir yerdə şadyanalıq edirlər. Naiqgilin həyətində də şadlıq çadırı qurulur, bəzənir. Süfrələrə neçə növ yeməklər düzülür. Musiqiçilər dəstəsi gəlir. Yeyib-içmək bolabol, çalan, oynayan, oxuyan... "Cəngi", "Heyvagülü", "Qoçəli" bir-birini əvəz edir, "Tovuzum" mahnısına qalxan cavanlar əl-ələ tutub sonrakı sifarişə –"Yallı" sədalarına şövqlə süzürlər. Naiqin sifarişi – "Can, Azərbaycan"ın sədaları kəndi başına götürür. Əsgər paltarında elə ürəklə oynayır ki... Yaxınları onu ortaya salırlar, anasını, atasını da yanına çəkib, ətraflarında halə qururlar. Naiq geri çevrilib müğənniyə sarı dönür, mikrofona yaxınlaşıb özü də ona qoşulur:

**Canımı sənə qurban demişəm,**
**Ay gözüm, canım, Azərbaycanım!**

Oxuya-oxuya əllərini cavanlara uzadıb "dirijorluq" edir. Dostları onu bir baxışdan anlayır və hamısı Naiqin başına toplaşır. Mahnının sonunu xorla bitirirlər...

**Can, can, can Azərbaycan!!!**

Həmin dövrdə Tovuzda müxtəlif özünümüdafiə dəstələri yaranmışdı. Hərə başına bir dəstə toplayıb ermənoyə qarşı döyüşə qoşulmuşdu. "Çənlibel" Etibar, "Boz qurd" Zöhrab, Qovlarlı Alik və digər adlarla dəstələr yığılmışdı. Zöhrab karateçi olduğundan onun başına toplaşanların hamısı idmançı idi. Etibarın ətrafındakılar isə həmkəndliləri – Əlibəyli kəndinin təcrübəli, yetkin insanları idi. Onların hər biri, torpaq uğrunda anındaca candan keçməyə hazır döyüşçülər idi.

Evə dönüşündən heç bir gün keçməmiş Naiqə bu dəstələrdən söz açdılar. Harada toplandıqları haqqında məlumat öyrənəndən sonra, qəti addım atmağı düşündü. O günlərdə dərin dərələrdə, yarğanlarda əks-səda verən güllələrin heybətli vıyıltısı vahimə, çaşqınlıq yaradırdı. Tovuzun füsunkar təbiətinin bakirəliyini yağı düşmən pozmuşdu. Naiq hər gün atəş səslərindən sonra bir xəbər eşidirdi: kiminsə həyətində mal- qara güllədən tələf oldu, kiminsə evinin şiferi parçalandı, kiminsə aynabəndinin şüşələri çilikləndi, güllə kiminsə qolunu yaraladı, kiminsə ayağını yaladı, keçdi... Naiq kəndin özünümüdafiə batalyonunun komandiri Məmmədalı Tağıyevin yanına gedir ermənini söyə-söyə döyüşlərə qatılmaq istəyini deyir...

...Həmin vaxt havadarlarının hesabına silahlanmış erməni yaraqlıları Ağdam kəndi istiqamətində irəliləyirdi. "Tovuzdan çıxın", "Tovuz satılıb", "Evləriniz yandırılacaq" kimi şüarlar yazılmış vərəqlər rayonun mərkəzi küçəsindəki keçidin yan-yörəsini "bəzəyirdi". Camaat isə "ölərik, amma torpağı qoyub çıxmarıq,"– deyə direniş göstərirdi. Rayon mərkəzində, "dağ pavorotu" deyilən avtobus dayanacağının yaxınlığında Tovuz Rayon Meşə Təsərrüfatı İdarəsi yerləşirdi. Döyüşə aid silah-sursat, hətta tank belə o idarənin həyətinə yığılmışdı.

Bütün respublikaya səs salan, Tovuzda həyata keçirilən "Çənlibel əməliyyatı" Naiqin iştirak etdiyi ən uğurlu və ağır döyüşlərdən sayılır. Əməliyyatda özünü təsdiq edən Naiq sonrakı bütün döyüşlərin hamısında iştirak etməyə "icazə" alır.

1992-ci il martın 24-də səhər tezdən döyüş əmri verilir. Tovuzun Koxa Nəbi kəndində gedən əməliyyatda Naiqin də olduğu dəstə ermənilərlə ölüm-dirim döyüşünə çıxır. Naiq özünü döyüş yerinə çatdıranda kənd od içində yanırdı. O, cəld qumbaraatanı düşmənin PDM-na tuşlayır. Bir an içində maşını alov bürüyür. Naiq mühasirəyə düşən döyüş yoldaşlarını xilas etmək üçün irəliyə atılır. Lakin qumbara qəlpəsi onu yerə yıxır. Ayağa qalxmağa cəhd göstərir, bacarmır. Ona yaxınlaşan silahlıları avtomat atəşi ilə yerə sərir. Son gülləsi bitdikdən sonra əsir düşməmək üçün əlindəki qumbaranı sinəsinə sıxır. Özü ilə bərabər 10-dan çox erməni quldurunu da belə məhv edir...

Yusifovların məhləsində qurulmasına bir ay qalmış al qırmızı lentli, bər-bəzəkli toy mağarının yerində yas çadırı qurulur... Naiqin toy gününə tədarük edilən ərzaq, nə qədər ağır da olsa, ehsanına qismət olur.

Anası Xədicə xanımdan Naiqin Bakıda – Şəhidlər xiyabanında dəfn olunması üçün icazə istəyirlər. Lakin ana oğlunun məzarının ona yaxın olmasını arzulayır, uzağa aparılmasına razı olmur. Nişanlısı Naiqdən sonra başqasıyla ailə qurmaqdan imtina etsə də, Naiqin ata-anası ağbirçəklik, ağsaqqallıq edərək, ona kəndlərindən başqa bir oğlan üçün elçilik edir, qızı özləri yenidən nişanlayır, toy-büsat qururlar...

Azərbaycan Resbublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli fərmanı ilə Naiq Nəsir oğlu Yusifova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Vaxtilə təhsil aldığı orta məktəb indi Naiqin adını daşıyır. Milli qəhrəmanımızın atası kənd camaatı üçün Ağdam kəndindən olan 12 şəhidin və oğlunun adına dağlardan ehsan bulağı çəkdirib.

Naiq az yaşasa da təkcə kənd camaatının, bir bölgənin yaddaşında yox, xalqının qəlbində yaşayır. Bu dövlətin, torpağın bütövlüyü naminə son damla qanını qurban verən Naiq kimi oğulları qədirbilən xalqımız daim yad edəcək və anacaq. Bu Vətən hələ daha çox Naiqlər yetirəcək. Bu gün onların ruhu şaddır. Çünki itirilən torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz bərpa edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***


## BİLDİRİŞ

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti tərəfindən "Əlicançay su anbarının tikintisi"nin satın alınması məqsədilə keçiriləcək açıq tenderdə ixtisas göstəricilərinə aid sənədlərin (tender təklifi və bank təminatı istisna olmaqla) təqdim edilmə tarixi 7 noyabr 2023-cü il saat 17.00-a, tender təklifi və bank təminatının təqdim olunma tarixi 21 noyabr 2023-cü il saat 17.00-a, tender zərflərinin açılışı tarixi isə 22 noyabr 2023-cü il saat 15.00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## "ŞƏKİ-BAZAR"ASC səhmdarlarının nəzərinə!

"Şəki-Bazar"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 26 dekabr 2023-cü il saat 12.00-da Şəki şəhəri, S.Rəhman küçəsi 1,"Şəki-Bazar"ASC-nin binasında keçiriləcəkdir.

Yığıncaqda iştirak etməyiniz xahiş olunur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107 3.1-ci bəndinə əsasən səhmdarlar yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər.

Yığıncağın gündəliyi:

1. "Şəki-Bazar"ASC-nin 2022-ci ildəki maliyyə -təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi.
2. 2022-ci ilin maliyyə nəticələrinə görə maliyyə- təftiş komissiyasının hesabatı və mühasibat balansının təsdiq edilməsi.
3. 2022-ci ilin yekunlarına görə mənfəətdən səhmdarlara ayrılmış dividend haqqında məlumat.
4. Digər məsələlər.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə tanış olmaq üçün "Şəki-Bazar"ASC-nin idarə heyətinə müraciət etmək lazımdır.

Əlaqə telefonu– (02424) 4-35-99.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 246 (30358) 4 noyabr 2023-cü il, şənbə

## İdman xəbərləri

### Millimiz bürünc medal uğrunda mübarizə aparacaq

**Minifutbol üzrə Azərbaycan millisi Birləşmiş Ərəb Əmirliklərində təşkil olunan dünya çempionatında növbəti oyununu keçirib.**



Yığma yarımfinalda Qazaxıstanla qarşılaşıb. Görüş rəqibin 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Elşad Quliyevin başçılıq etdiyi komandadan hər iki qolu Eşqin Tağıyev vurub.

Bu nəticədən sonra Qazaxıstan yığması finala yüksəlib. Azərbaycan millisi isə bürünc medal uğrunda mübarizə aparacaq.

### Cüdoçumuz hakimin haqsız qərarına məruz qalıb

**Monpelyedə keçirilən cüdo üzrə Avropa çempionatının birinci günündə Azərbaycan idmançısı Balabəy Ağayev (60 kiloqram) italiyalı Andrea Karlino ilə görüşündə hakimin haqsız qərarına məruz qalıb.**



Bu haqda Azərbaycan Cüdo Federasiyası məlumat yayıb. Bildirilib ki, ilk görüşündə italiyalı Andrea Karlino ilə üz-üzə gələn B.Ağayev hakimin yanlış qərarı nəticəsində sonda rəqibinə məğlub olub: "Ağayev Karlino ilə görüşə kifayət qədər inamlı başladı. Təbii ki, italyan passivliyinə görə xəbərdarlıqlar almağa başladı, lakin sonra döyüşün mənzərəsi bir qədər dəyişdi. Hakim Balabəyə "şido" verməyə başladı və döyüş "qızıl hesaba" çevrildi. Əlavə vaxtda da cüdoçumuz fəallıq göstərsə də, səbəbsiz olaraq "passivliyə" görə üçüncü xəbərdarlığı aldı və hakimlərdən jestlərlə epizodu yenidən nəzərdən keçirməyi xahiş edərək, tatamidən çıxmaqdan imtina etdi. Lakin hakimin qərarı qüvvədə qaldı və Balabəy tatamini məyus halda tərk etdi".

### "Qarabağ"– "Bayer 04" "ev oyunu"na 15 min bilet

**UEFA Avropa Liqasının qrup mərhələsində "Qarabağ"ın Almaniyanın "Bayer 04" klubuna qarşı keçirəcəyi ev oyununa 15 min bilet satılıb.**




Matçın biletlərinin qiyməti müvafiq olaraq 5, 20, 40 və 100 manat təşkil edir. Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək matçın biletlərini (iticket.az-da onlayn satış), Park Bulvardakı "Qarabağ" FK-nın Fan-Şopu, Tofiq Bəhramov adına Respublika stadionunun kassalarından əldə etmək mümkündür.

Qeyd edək ki, "Qarabağ" – "Bayer 04" oyunu noyabrın 9-da keçiriləcək.

*Leyla SABİRQIZI*
*XQ*



## OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Lider xalqa söykənəndə
Zəfər zirvəsinə ucalan bayrağım!

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Ekologiya

### Şəki–Zaqatalada turizm axtarışı

***AMEA-nın Şəki Regional Elmi Mərkəzinin Landşaftşünaslıq və Ekoloji coğrafiya şöbələri tərəfindən Şəki-Zaqatala bölgəsinin selli dağ çayları hövzələrindəki ərazilərin ekoloji mühiti öyrənilir və müvafiq elmi tədqiqat işləri aparılır.***



Regional Elmi Mərkəzin Ekoloji coğrafiya şöbəsinin rəhbəri Yusif Rəhimov bildirib ki, 2023-ci ilin iş planına uyğun olaraq, Oğuz rayonunun Muxas, Bucaq və Xalxal kəndləri ərazilərində aparılan növbəti ekoloji monitorinq zamanı ərazilərin torpaq və bitki örtüyü müayinə olunub, eyni zamanda, həmin ərazilərin turizm potensialının dəyərləndirilməsi istiqamətində tədqiqat işləri yerinə yetirilib.

*Ayan NƏCƏF,*
*tələbə-jurnalist*

## Turizm

### Sorrento – "Su pərilərinin məkanı"



**İtaliya dünyada o nadir ölkələrdəndir ki, gözəl və füsunkar şəhərləri ilə turistləri özünə cəlb edir. Belə şəhərlərdən biri də landşaftına görə ən məşhur kurort şəhərlərindən olan Sorrentodur. Bu şəhərin nağılvari kurortlarına mahnılar da həsr olunub. Su pərilərinin torpağı kimi məşhur olan bu şəhəri hələ qədim romalılar özlərinə məskən seçmiş, varlılar burada şəhərkənarı mülklər tikmişlər.**

Bu gün də dünyanın bir çox məşhur insanları istirahət üçün məhz bu yarımadanı seçirlər. Yarımada limon, apelsin, üzüm və zeytun bağları ilə zəngindir. Dəniz yeməkləri ənənəvi mətbəx hesab olunur.

Tarixi tikililəri, XII əsrə aid kilsəsi, məbədləri, muzeyləri, qədim teatr və s. görməli yerləri ilə məşhurdur. Dəniz mövsümünü sevənlər üçün füsunkar çimərlikləri və termal kurortları var. Sorrentoda turistlər ilin bütün fəsillərində özlərinə lazım olan istirahət və əyləncə məkanlarını axtarıb tapır, burada doyunca dincəlirlər.

Yarımadanı dəfələrlə, Höte, Dikkens, Vaqner, Nitşşe kimi görkəmli yazıçı, filosof, rəssam və musiqiçilər ziyarət ediblər, öz əsərlərində də Sorrentonun gözəlliyini vəsf ediblər.

*Fidan SALMANLI*
*XQ*

## Memarlıq

### "Rəqs edən ev"

**Bəzən binalar elə dizayn edilir ki, biz ilk baxışdan onun real, yoxsa optik illuziya olduğunu anlaya bilmirik. Belə tikililərdən biri də Praqada yerləşən "Rəqs edən ev" binasıdır.**



Tikildiyi gündən Çexiyanın ən populyar binası dekonstruktivizm üslubunda qurub-yaradan memarlar Vlado Miluniç və Frenk Qeri tərəfindən layihələndirilib. Ev, sanki, rəqs edən gənc cütlüyü əks etdirən iki silindrik qüllədən ibarətdir. Bu dinamik və plastik tikiliyə baxanda elə təsəvvür yaranır ki, indi rəqs etməyə başlayacaq.

Hollivud ulduzları Cincer Rocers və Fred Aster məşhur xoreoqrafik duet ortaqları sayıldığına görə, tikili zarafatsayağı "Cincer və Fred" adını alıb. Bina Praqanın sıx əhalisi olan hissəsində yerləşir və hazırda ofislər mərkəzi kimi istifadə olunur. Bir çox beynəlxalq kompaniyaların ofisləri məhz burada fəaliyyət göstərir.

Eyni zamanda, "Dancing House", yəni "Rəqs edən ev"in başqa bir adı da "Sərxoş ev"dir.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## Kosmos

### Yupiter Yerin qalxanı imiş...

**Belə bir qənaətə Kaliforniya Universitetinin alimləri gəliblər. Onların apardığı elmi tədqiqatların nəticələri "Astronomical Journal" jurnalında dərc olunub.**



Astronomlar qaz nəhəngi Yupiterin Yeri asteroidlərdən qoruyan qalxan rolunu oynadığı Günəş sistemini şərti nömrələri HD 141399 olan 4 qaz nəhəngi ilə müqayisə ediblər. Bu məqsədlə yerəbənzər planetlərin orbitinə təsirini modelləşdirən böyük qaz-planetlər üzərində bir neçə kompüter simulyasiyası həyata keçirilib. Həmin zona temperaturun kifayət dərəcədə yüksək olduğu uzaqdan məsafənin diapazonu kimi müəyyən edilib.

Məlum olub ki, yüksək hərarət səthində maye suyun mövcudluğunu istisna edən yanan nəhəng 4 şar, sadəcə, "xaos agentləri" kimi yerlərini dəyişir.

*SEVDA*
*XQ*

## Hava

### Abşeronda yağmursuz, bölgələrdə yağıntılı olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 4-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər zəif duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 13-16°, gündüz 18-22° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 18-23°, dağlarda gecə 4-8°, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Hadisə

### Kamçatka – "yeraltı əjdaha" od püskürür

**Rusiyanın Kamçatka vilayətindəki Klyuçev Sopkası vulkanının püskürməsi nəticəsində kül buludu 11 kilometr hündürlüyə qalxıb. Bu barədə Rusiya Elmlər Akademiyasının Uzaq Şərq bölməsinin Vulkanologiya və Seysmologiya İnstitutunun "Teleqram" kanalında məlumat verilib.**



Xəbərdə sonra bildirilir ki, kül dumanı havada vulkanın mərkəzindən 130 kilometr şərq istiqamətində uzanıb. Qeyd olunur ki, vulkanın fəaliyyəti yerli və beynəlxalq hava səyahətləri üçün təhlükəlidir.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4793
SİFARİŞ 2841
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00